Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 MAY 2019-cu il

№ 92 (3990)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDA RUS ƏSGƏRİNİN İŞİD-çi TƏRƏFİNDƏN ÖLDÜRÜLMƏSİ - ERMƏNİSTAN İŞİD-in QAFQAZA GƏLİŞİNİ TƏTİKLƏYİR...

■ səh. 8 ■

Ermənistan XİN girov saxladığı 2 azərbaycanlını "uşaq qatili" adlandırdı...

■ səh. 4 ■

Qarabağlı-ermənistanlı qarşıdurması şiddətlənməyə başladı, "Daşnaksütyun" da Paşinyanın qarşısına dikildi...

■ səh. 10 ■

Jurnalist Fuad Abbasov kimi bir həbs Azərbaycanda olsaydı - Fuadın tutdurulmasında və beynəlxalq təşkilatların susdurulmasında erməni əli...

■ səh. 5 ■

Ermənistanda vəziyyət 90-cı illərdə Azərbaycandakı vəziyyəti xatırladır - ermənilər vəziyyətdən işğal üçün istifadə etdilər, biz necə...

■ səh. 4 ■

Səudiyyə İƏT-in Məkkə zirvəsində anti-İran prosesi başlatmaq istəyir - Azərbaycanın mövqeyi...

■ səh. 5 ■

Tehran Universitetində Türk dili bölməsi...

■ səh. 6 ■

Cinsi xəstəliklərdən ölənlərin sayı artıb, niyə...

■ səh. 15 ■



■ səh. 6 ■

## Paşinyan Köçəryanı həbsdən çıxaran rusiyapərəstlərdən qisas üsulunu tapdı - KTMT baş katibi məsələsi yenidən qaytarılır...



Paşinyan Qarabağ müharibəsində qaçılmaz məğlubiyyətin məsuliyyətini qondarma rejimin üstünə qoymaq üçün əsaslar hazırlayır

■ səh. 9 ■

Qondarma «DQR»də tanınmamış rejimlərin futbol turnirinə hazırlıq gedir, təşkilatçılıqda şübhəli bir xarici qurumun barmağı var...

■ səh. 7 ■



Orta məktəb təhsili sistemini hədəfə alan qara piarın yeni dalğası - yarımçıq məlumatları kimlər yayır?

■ səh. 13 ■

■ səh. 12 ■

Azərbaycanda islahatların digər MDB ölkələrindəki islahatlardan forma və prinsip fərqləri...



■ səh. 7 ■

Paşinyan əhalini məhkəmələrə qarşı açıq hücuma çağırdı, Ermənistanı demokratik ölkə sayan bəzi Avropa institutları susdu...



■ səh. 14 ■

Kulinar Tahir Əmiraslanovdan beynəlxalq qurumlara şikayət yazan və yazdıranlar...



■ səh. 14 ■

Milli zəfəran istehsalı üçün kadr potensialı dağılıb - yeni problem...



■ səh. 15 ■

Qəbul imtahanlarında yenilik - fənlər üzrə bal məhdudiyyətinin qaldırılması abituriyentə nə verəcək...





### Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə Respublika Günü təbrikində "uğurlarınız Türkiyə üçün də qürur mənbəyidir" yazdı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

Təbrikdə deyilir ki, dost və qardaş Azərbaycanın müstəqilliyini bərpa etməsindən bu günə qədər keçən müddət ərzində bütün sahələrdə qazandığı böyük uğurlar Türkiyə üçün də qürur mənbəyidir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərinin artaraq davam edəcəyinə inamımız qətidir. "Bir millət, iki dövlət" şüarı ilə genişlənən strateji münasibətlərimizin daha da güclənməsi istiqamətində qətiyyətli olduğumuzu bir daha vurğulamaq istəyirəm. Qarşıdakı dövrdə də sıx əməkdaşlığımızın regionumuzda və regionumuzdan kənarda sülh, rifah və sabitliyə mühüm töhfə verəcəyinə səmimi qəlbdən inanıram. Əlavə edək ki, Prezidentə təbriklər davam etməkdədir. Belə ki, Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Migel Dias-Kanel Bermudes və Belçikalıların Kralı Filip də Prezident İlham Əliyevə 28 May Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Təzəpir məscidinin qarşısındakı bağın və Füzuli küçəsi boyunca salınmış Mərkəzi Parkın açılışında iştirak ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva** mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı bağın və Füzuli küçəsi boyunca salınmış Mərkəzi Parkın açılışında iştirak ediblər.

# "Arsenal"ın erməni əsilli futbolçusu Ermənistanın əlində oyuncağa çevrildi

**Ermənistan "Arsenal"ın erməni əsilli oyunçusunu öz təxribatçı məqsədləri üçün istifadə edir. Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva erməni həmkarının açıqlaması ilə bağlı suala cavabında bildirib.**

Qeyd edək ki, Ermənistan XİN mətbuat katibi Bakıda keçiriləcək UEFA Avropa Liqası final oyunu və "Arsenal"ın oyunçusu H.Mxitaryanın Bakıya səfər etməməsi ilə bağlı açıqlama ilə çıxış edib.

L.Abdullayeva ilk növbədə vurğulayıb ki, Azərbaycan tərəfindən bu ilin 29 may tarixində UEFA-nın Avropa Liqasının Bakıda keçiriləcək final oyununda iştirak edəcək bütün oyunçuların, o cümlədən "Arsenal" futbol klubunun oyunçusu H.Mxitaryanın, eləcə də bütün pərəstişkarların təhlükəsizliyinin tam şəkildə təmin olunacağı barədə məlumat verilib:

"Şəxsən XİN-in mətbuat katibi olaraq, mən bu xüsusda ünvanlanan suallara cavab olaraq, Azərbaycanın idmanla siyasəti eyniləşdirmədiyini dəfələrlə qeyd etmişəm. Azərbaycan ilk dəfə deyil ki, mötəbər idman yarışlarına ev sahibliyi edir və paytaxtımızda indiyədək keçirilən çoxsaylı idman yarışlarında erməni əsilli idmançılar da iştirak ediblər.



Ermənistan XİN-in "Arsenal" futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması, bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasət alətinə çevirmək cəhdlərindən xəbər verir. Ermənistan XİN-in belə bir oyunda iştirak etməsi yalnız təəssüf doğurur.

Əfsuslar olsun ki, bu addım Ermənistanın Minsk Qrupunun həmsədrlərinin bəyanatlarında qeyd edildiyi kimi xalqların sülhə hazırlanmasına hazır olmadığını aydın şəkildə nümayiş etdirdi. Təəssüf ki, Ermənistan "Arsenal"ın erməni əsilli oyunçusunu öz təxribatçı məqsədləri üçün istifadə edir. Bu həm də onu nümayiş etdirdi ki, birinci növbədə Ermənistan xalqının sülhə hazırlanmağa ehtiyacı var. Ağlasığmaz və gülüncdür ki, Azərbaycanın işğal etdiyi ərazilərində etnik təmizləmə həyata keçirən, monoetnik ölkə olan Ermənistan Azərbaycanı rasizmdə ittiham edir. Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların sülh və tolerantlıq mühitində birgə yaşayışı bütün dünyaya yaxşı bəllidir.

UEFA-nın Avropa Liqasının final oyununun Bakıda yüksək səviyyədə təşkili, ölkəmizə səfər edən əcnəbilərin (istər futbol oyunçuları, istərsə də pərəstişkarlar olsun) Azərbaycandakı real vəziyyətlə yerindəcə tanış olmaları Ermənistan XİN-in əsassız iddialarının ən gözəl cavabı olacaq".

# Metyu Brayza: "Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir"

**Gələn həftə - mayın 29-da Bakı UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa evsahibliyi edəcək.**

Hesab edirəm ki, bu, möhtəşəmdir. Bu oyun Bakının necə gözəl şəhər, həmçinin, yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır. Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza söyləyib.

"Təəssüf ki, "Arsenal"



klubunun erməni əsilli oyunçusu Mxitaryan təhlükəsizlik məsələsini əsas gətirərək Bakıda keçiriləcək bu oyunda iştirak etməmək barədə qərar verib. Aydındır ki, bu, onun şəxsi seçimidir. Məncə, bu oyunda iştirak etməməsi onun futboldan qazanacağı puldan məhrum olmasına səbəb olacaq. Zənnimcə, bu, ağıllı seçim deyil. Onun Bakıda yarış zamanı futbol meydançasında özünün təhlükəsizliyi ilə bağlı narahat olması üçün heç bir səbəb görmürəm. Mən ermənilər tanıyıram ki, Azərbaycana rahat səfər ediblər. Amma bu, hər halda, futbolçunun şəxsi qərarıdır. Ümid edirəm ki, bu, oyunun möhtəşəm keçməsinə, eləcə də xarici qonaqların Bakının gözəlliyindən həzz almalarına mane olmayacaq. Düşünürəm ki, həm bu oyunun, həm də Bakının gözəlliyinin nümayiş etdirilməsinin siyasətlə heç bir əlaqəsi yoxdur", - deyə M.Brayza vurğulayıb.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Rusiyadakı səfirliyimizdən jurnalist Fuad Abbasovun saxlanması barədə xəbərə reaksiya verildi

**Jurnalist Fuad Abbasovun Rusiya Daxili İşlər Nazirliyinin Ximki şəhəri üzrə polis idarəsinin əməkdaşları tərəfindən saxlanması Azərbaycanın Rusiyadakı səfirliyinin nəzarətindədir.**

Bu barədə "Trend"ə Azərbaycanın Rusiyadakı səfirliyindən məlumat verilib. Bildirilir ki, səfir Polad Bülbüloğlunun göstərişinə əsasən, mayın 20-də səfirliyin konsulluq şöbəsinin əmək-



daşları onunla Moskva vilayətinin Korolyov şəhəri üzrə əcnəbilərin müvəqqəti saxlanma mərkəzində görüşüb. Böyük ictimai narahatlığa səbəb olan bu hadisə ilə bağlı səfirlik tərəfindən bütün lazımi tədbirlər görülür.

# KİVDF-nin Əmək və ... Nazirliyi ilə birgə müsabiqəsinə məqalə yazan qalib jurnalist min manat mükafat aldı

**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi "Prezident İlham Əliyevin sosial islahatlar paketi: əhalinin rifahı naminə yeni inqilabi addımlar" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıb.**



Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin rəhbər vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak edib.

Tədbir iştirakçılarını salamlayan Sahil Babayev Prezident İlham Əliyevin sosial islahatlar proqramının yeni uğurlu nəticələri kimi əhalinin rifahının yaxşılaşdırılması istiqamətində yeni inqilabi addımların atıldığını vurğulayıb. Nazir bildirib ki, cari ilin ötən dövründə minimum əməkhaqqının orta hesabla 40 faiz artırılması 600 min, pensiyanın minimum məbləğinin orta hesabla 40 faiz artırılması 233 min, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması 600 minədək vətəndaşı əhatə edib. Həmçinin 500 mindən çox məcburi köçkünün müavinəti 50 faiz artırılıb, 110 minədək tələbənin təqaüdlərində əhəmiyyətli artımlar edilib. Azərbaycan Prezidentinin 28 fevral 2019-cu il tarixli fərmanı isə 800 mindən çox vətəndaşın problemli kreditlərinin həllinə, bununla onların sosial vəziyyətinin yaxşılaşmasına imkan verib. Bu və digər sosial əhəmiyyətə malik tədbirlər ümumilikdə 3 milyon insanın rifahına mühüm dəstək olub: "Prezident cənab İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimindəki çıxışı zamanı bu istiqamətdə aparılan işlərin davamlı xarakter daşıdığını, minimum əməkhaqqının, minimum pensiyanın artırılmasının gündəlikdə olduğunu bir daha vurğulayıb".

Nazir, həmçinin əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə idarəçilik və əhaliyə xidmətlərin innovativ həllərin tətbiqi üzərində qurulması istiqamətində köklü islahatların aparıldığını qeyd edib. O, pensiya təyinatından başlayaraq dövlət sosial xidmətlərinin proaktiv formada təşkili işlərinə başlandığını, bu işlərin məcrasının genişləndiyini, yaradılan DOST Agentliyinin və ilk DOST mərkəzinin ölkəmizin sosial sahədə yeni bir uğurlu təcrübəsi olduğunu, Bakı və ölkəmizin bölgələri üzrə 31 DOST mərkəzinin qurulmasının nəzərdə tutulduğunu deyib.

Sahil Babayev onu da bildirib ki, Prezidenti İlham Əliyevin 2 avqust 2018-ci il tarixli sərəncamı ilə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün əlavə olaraq 20 milyon manat vəsaitin ayrılması nəticəsində 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox - 626 mənzilin təqdim edilməsinə səbəb olub. Nazir cari ildə bu kateqoriyadan olan 800-dək vətəndaşın dövlət hesabına mənzillə təmin olunacağını diqqətə çatdırıb.

Qeyri-rəsmi məşğulluqla mübarizə sahəsində tədbirlərdən söz açan Sahil Babayev məqsədyönlü stimullaşdırıcı addımlar nəticəsində cari ilin ötən dövründə əmək müqaviləsi ilə işləyənlərin sayının 91 min nəfərə yaxın artdığını deyib.

Çıxışını davam etdirən Sahil Babayev bildirib ki, bu gün nəticələri açıqlanan müsabiqə ölkədə sosial inkişaf sahəsində əldə olunan bu irəliləyişlərin, islahatların uğurlu nəticələri barədə geniş ictimai məlumatlandırmanın təmin olunmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasına xidmət edib. Ümumilikdə müvafiq fəaliyyət sahələrində aparılan islahatlar, görülən işlər barədə cəmiyyətin ətraflı məlumatlandırılmasında media ilə fəal əməkdaşlıq qurulub.





Aidiyyəti mövzularda ictimai məlumatlandırmanın genişləndirilməsi, jurnalist peşəkarlığının artırılması, maraq və əməyinin stimullaşdırılması üçün Fondla əməkdaşlıq şəraitində fərdi jurnalist yazıları müsabiqələrinin təşkili də diqqətdə saxlanılır: "Müsbət haldır ki, KİV nümayəndələri bu müsabiqələrdə fəal iştirak edirlər. Qarşıdakı dövrdə də Fondla birgə belə müsabiqələrin keçirilməsi davam etdiriləcək".

Fondun icraçı direktoru Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq, qısa müddətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə sayca üçüncü fərdi jurnalist yazıları müsabiqəsinin təşkilini nazirliyin fəal və məhsuldar fəaliyyəti, habelə mediaya açıq qurum olması ilə əlaqələndirib. V.Səfərli xüsusi vurğulayıb ki, nazirlik son aylarda fəaliyyətini tamamilə yeni, çevik və şəffaf mexanizmlər üzərində quraraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatların, bu sahədə imzalanmış fərman və sərəncamların icrasında yaxından iştirak edir.

V.Səfərli qeyd edib ki, nazirliyin həyata keçirdiyi islahatların ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında medianın rolu və xidmətləri müstəsnadır. İcraçı direktor bu baxımdan keçirilən birgə müsabiqələrin əhəmiyyətini xüsusi vurğulayıb. V.Səfərli 2019-cu il aprelin 3-dən mayın 1-dək davam edən fərdi jurnalist yazıları müsabiqəsinə 20 KİV-dən 31 yazının təqdim olunduğunu, yazıların Fondun və nazirliyin ekspertləri tərəfindən qiymətləndirildiyini bildirib. İcraçı direktor müsabiqənin yekunlarına əsasən 6 nəfərin əsas, 5 nəfərin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri Umud Mirzəyev, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev nazirliklə media arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən belə intensiv görüşlərin və birgə yazı müsabiqələrinin əhəmiyyətindən söz açıb.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim olunub.

Tədbiri yekunlaşdıran nazir Sahil Babayev media ilə əlaqələrin inkişafına verdiyi töhfəyə görə Fondun rəhbərliyinə, eləcə də müsabiqədə iştirak edən jurnalistlərə təşəkkürünü bildirərək,belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

Xatırladaq ki, birinci yeri tutan jurnalist 1000 manat mükafat alıb.

***Baki-xeber.com***

**ATƏT-in Minsk Qrupunun həmsədrləri mayın sonunda regionda səfərdə olacaqlar. Onlar Ermənistan, Azərbaycan və Dağlıq Qarabağa səfər edəcəklər. Bu barədə Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan çərşənbə axşamı İrəvanda brifinqdə bildirib.**

*”Erməni mətbuatı Naqdalyanın Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı səsləndirdiyi fikirləri bir qədər təhrif edir”*

# Ermənistan XİN girov saxladığı 2 azərbaycanlını "uşaq qatili" adlandırdı...

***Əhməd Şahidov:** ”Rəsmi Bakının təklif etdiyi ”Hamının hamıya” prinsipi üzrə əsir və girovların dəyişdirilməsi prosesi İrəvanı narahat edir”*



Bununla yanaşı, əsirlərin "Hamının hamıya" prinsipi üzrə dəyişdirilməsilə bağlı Bakının təklifinə toxunan Naqdalyan işarə edib ki, guya yeniyetmənin ölümündə ittiham olunan Dilqəm Əsgərovu və Şahbaz Quliyevi dəyişməyəcəklər. Bununla belə, Dilqəm Əsgərov və Şahbaz Quliyevin guya "ağır cinayət törətdiklərini və mülki insanları qətlə yetiridiklərini" iddia edən Ermənistan XİN nümayəndəsi həmin şəxslərin "qəhrəmanlaşdırılması"nın əleyhinə olduqlarını da bildirib: "Ermənistan XİN hər zaman real humanitar addımların atılmasının tərəfdarı olub, lakin bu humanitar hərəkətlər ağır cinayətlərin cəzasız qalması ilə nəticələnməməlidir".

Qeyd edək ki, iki ölkə XİN rəhbərinin apreldə Moskvada keçirilmiş son görüşündən sonra tərəflər humanist addımlar barədə bəyanatla çıxış ediblər. Əsasən bütün əsirlərin mübadiləsi, jurnalistlərin qarşılıqlı səfərləri nəzərdə tutulub. Bu təşəbbüs ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən dəstəklənib.

Görünən odur ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə əsir və girovların dəyişdirilməsini pozur. Ən başlıcası isə, Dilqəm Əsgərov və Şahbaz Quliyevə münasibətdə qisasçılıq mövqeyindən çıxış edir. Məsələni tamamilə başqa istiqamətə yönəltməyə və onların məsələsinə başqa don geydirməyə çalışırlar. Guya adıçəkilən şəxslər yeniyetməni öldürüblər. Halbuki, bütün bunlar tamamilə cəfəngiyyatdır.

O baxımdan ekspertlər Naqdalyanın adıçəkilən girovlarla bağlı səsləndirdiyi fikirləri necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidovun sözlərinə görə, rəsmi Bakının təklif etdiyi "Hamının hamıya" prinsipi üzrə əsir və girovların dəyişdirilməsi prosesi rəsmi İrəvanı narahat edir:** "Vyana və Moskva görüşlərində əldə olunmuş humanitar addımların atılması barədə razılaşmaya əsasən, artıq rəsmi İrəvan müəyyən addımlar atmağa başlayıb. Bu ölkənin müdafiə naziri David Tonoyanın son açıqlaması, habelə Ermənistan XİN-in bəyanatı belə deməyə əsas verir. Ermənistan humanitar addımları atmağa hazır olduğunu desə də, azərbaycanlı girovların öz Vətənlərində qəhrəman kimi qarşılanacağından narahatdır və bunu açıq şəkildə ifadə edir. Düşünürəm ki, bu, Ermənistanın subyektiv fikridir. Azərbaycan dövləti və cəmiyyəti hansı məsələ ilə bağlı necə davranacağı barədə özü qərar verəcək. Fikrimcə, erməni mətbuatı Anna Naqdalyanın Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı səsləndirdiyi fikirləri bir qədər təhrif edir. Məsələ ondadır ki, Ermənistan demir sözügedən şəxslər dəyişdirilməyəcək. Naqdalyan dedi ki, həmin şəxslərin sonradan qəhrəmanlaşdırılmasının əleyhinədirlər. Yəni dəyişdirilmə baş tutacaq. Sadəcə, Azərbaycana mesaj verir ki, həmin şəxsləri Ramil Səfərov kimi sonradan qəhrəmanlaşdırmayın. Hesab edirlər ki, bunun Ermənistan cəmiyyətinə mənfi təsiri var. Ona görə də indidən belə bir şərt irəli sürürlər. Erməni mətbuatı isə onun dediklərini təhrif edərək belə təqdim edir ki, guya Naqdalyan həmin girovların dəyişdirilməyəcəyinə eyham vurub. Əslində, qeyd etdiyim kimi, bu belə deyil".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Ermənistanda vəziyyət çox gərgindir. Demək olar ki, hakimiyyətsizlik hökm sürür. Hakimiyyətin əsas qolları Paşinyana tabe olmurlar. Ölkənin daxilində güclü dayaqlara malik olan "Qarabağ klanı" Ermənistanın yeni hakimiyyətinə açıq əzələ nümayiş etdirir. Həmçinin, Dağlıq Qarabağdakı separatçı rejim də, faktiki olaraq, Paşinyana hərbi müxalifət kimi öz diktələrini edir.**

# Ermənistanda vəziyyət 90-cı illərdə Azərbaycandakı vəziyyəti xatırladır - ermənilər vəziyyətdən işğal üçün istifadə etdilər, biz necə...

***Akif Nağı:** ”Oradakı vəziyyətin qeyri-stabilliyi bizim üçün əlavə şanslar yaradır”*



*”Bir-birlərini şantaj edirlər ki, qarşı tərəf torpaqları vermək üçün bu oyunları ortaya atıb”*

Onların təbirincə desək, "başqa ölkə"nin indiki və sabiq rəhbəri gəlib Ermənistanda türmənin qapısını açıb həbsdəki sabiq prezident Köçəryanı azadlığa buraxır.

Ordunun daxilində də Paşinyana açıq etiraz edən qüvvələrin olduğunu Ermənistan cəmiyyətinin özü etiraf edir. Son hadisə göstərdi ki, məhkəmə, ədliyyə sistemi də Paşinyana tabe deyil. Eləcə də Ermənistan Prezidenti Armen Sarkisyanın və erməni kilsəsinin də son proseslərdə faktiki olaraq Paşinyanı dəstəkləməməsi ölkədəki vəziyyətin gərgin olduğuna, çoxhakimiyyətliliyin mövcudluğuna dəlalət edir. Bu vəziyyət sanki Azərbaycandakı 90-cı illərin əvvəlini xatırladır. Erməni siyasi rəhbərliyində təmsil olunan bir çox adam, həmçinin, eks-prezidentlər etiraf ediblər ki, onların müharibədə müvəqqəti qələbə qazanmasında Azərbaycandakı həmin hadisələrin böyük rolu olub. Yəni başı hakimiyyət davasına qarışan ölkənin ərazilərini asanlıqla işğal edə biliblər. Bəs biz necə, Ermənistandakı yaranmış vəziyyətdən yararlana bilərikmi?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan orada gedən prosesləri daha dərindən izləməlidir:** "Biz müharibə şəraitində olan ölkələrik. Təbii ki, bir-birimizin zəif və güclü tərəflərini bilməliyik. Bu, bütün dünya tarixində belə olub. Sizinlə tam razıyam ki, 90-cı illərdə ermənilər yaranmış situasiyadan məharətlə istifadə etdilər. Nəticədə çox asanlıqla bizim böyük bir ərazimizi işğal altına sala bildilər. Ermənistanda lap vəziyyət əla olsa belə, biz onları məhv etmək gücündəyik. Bunu heç vaxt unutmamalıyıq ki, oradakı hansı situasiyanın yaşanmasından asılı olmayaraq, biz işğaldan torpaqlarımızı azad etməyə köklənməliyik. Ancaq oradakı vəziyyətin qeyri-stabilliyi bizim üçün əlavə şanslar yaradır. Müharibəni aparmaq üçün düşmənin bütün vəziyyəti, ölkəsindəki siyasi vəziyyət, hakimiyyət böhranının olub-olmaması dərindən təhlil olunmalıdır. Ermənistandakı vəziyyət göz önündədir. Mən deyərdim ki, hətta katostrofikdir. Paşinyanan özü hakimiyyətdə ola-ola əhalini inqilab etmək, məhkəmə sistemində islahat aparmaq üçün küçələrə çağırır. Başlarını itiriblər. Hansı ölkənin başçısı öz idarəetməsinə qarşı belə davranış sərgiləyər? Bir məsələ ki, imza ilə düzəlir, onda əhalini küçələrə tökməyin nə anlamı var? Separatçı qurumla da münasibətləri, demək olar ki, müharibə həddindədir. İndi siz təsəvvür edin ki, bu vəziyyətdə olan ölkədə müharibə hansı panikaya səbəb ola bilər? Dağlıq Qarabağdakı qondarma rejim Rusiyanın dedikləri ilə oturub-durur. Paşinyana tabe olmur. Ona görə də müharibənin səsi eşidilən kimi onlar hakimiyyət uğrunda bir-birini qıracaqlar.

Maksimum dərəcədə bu şansı buraxmamalıyıq. Birmənalı şəkildə, hərbi əməliyyatlara başlayıb, torpaqlarımızı işğaldan azad etməliyik. Fikir verirsinizsə, onların özlərinin ağlına bu hamıdan tez gəlib. Bir-birlərini şantaj edirlər ki, qarşı tərəf torpaqları vermək üçün bu oyunları ortaya atıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Jurnalist Fuad Abbasov kimi bir həbs Azərbaycanda olsaydı - Fuadın tutdurulmasında və beynəlxalq təşkilatların susdurulmasında erməni əli...

## Yadigar Məmmədli: "Onun azadlığı tələb edilməsə də, ən azından, faktın pislənməsi ilə bağlı mövqe ortaya qoyulmalı idi"

**Tanınmış jurnalist Fuad Abbasovun Rusiya hüquq-mühafizə orqanları tərəfindən həbs edilməsi və həbs edilərkən mənəvi, fiziki işgəncə görməsi ilə əlaqədar olaraq etirazlar artmaqdadır. Azərbaycanın daxilində bu məsələ geniş müzakirə edilir. Müxtəlif siyasi partiyalar, jurnalistlər, millət vəkilləri bu həbsi və jurnalistin işgəncəyə məruz qalmasını pisləyiblər.**



*"Belə bir situasiya ilə hər hansı bir avropalı jurnalist, hətta bloger rastlaşsaydı, biz tam fərqli mənzərənin şahidi olardıq"*

Tanınmış jurnalist F.Abbasovun həbsinə münasibət bildirənlərdən biri də Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov olub. O öz sosial şəbəkə hesabında fikirlərini bölüşüb və qeyd edib ki, F.Abbasov Azərbaycan həqiqətlərinin Rusiya ictimaiyyətinə çatdırılmasında yaxından iştirak edib: "F.Abbasov tanınmış jurnalistdir. Özünün mövqeyində hər zaman ardıcıllığı ilə fərqlənir. Azərbaycan həqiqətlərinin Rusiya ictimaiyyətinə çatdırılmasında yaxından iştirak edir. Xüsusən də jurnalist kimi Dağlıq Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini qətiyyətlə dəstəkləyir. Belə bir adamın bu cür vəziyyətlə üzləşməsi bizi ciddi şəkildə narahat etməkdədir".

MŞ sədri jurnalistin vəkili Elman Paşayevlə əlaqə saxladığını qeyd edib: "Onun bildirdiyinə görə, jurnalistə qarşı fiziki təzyiq də göstərilib. Görünür ki, jurnalistlə bağlı müəyyən maraqlı qüvvələr var. Bu hal da narahatlıq və təəssüf doğurur. Ümumən durumu Rusiyanın jurnalist təşkilatları ilə də daim müzakirə edirik. Baxmayaraq ki, F.Abbasovun deportasiyası barədə qərar verilib, inanırıq ki, yekunda məsələ ədalətli həllini tapacaq".

Çox maraqlıdır ki, F.Abbasov kimi tanınmış jurnalistin həbsinə dünyanın nüfuzlu jurnalist təşkilatları və insan haqları müdafiəsi qurumlarının heç bir reaksiyası yoxdur. Biz görmüşük ki, Azərbaycanla bağlı hadisələrdə sözügedən təsisatlar çox fəallıq göstərirlər. Ölkədə hansısa icazəsiz aksiyada polis jurnalistə "bir az o tərəfə çəkil" deyəndə belə bunu mediaya basqı kimi dəyərləndirən beynəlxalq qurumlar susurlar. Biz hər zaman qeyd etmişik ki, Azərbaycana qarşı qərəzli olan həmin qurumlarda erməni təsiri güclüdür. Əksəriyyətinin rəhbərliyində ermənilər təmsil olunurlar. Məlumdur ki, F.Abbasovun həbs edilib, işgəncəyə məruz qalmasında Rusiyadakı erməni diasporunun rolu olub. Onlar bir müddət əvvəl Fuadla bağlı Rusiya hüquq-mühafizə orqanlarına şikayət etmişdilər ki, soydaşımız olan jurnalist guya orada milli zəmində ədavəti qızışdırır. Belə olan halda, beynəlxalq qurumların Fuadın həbsindəki susqunluğunu erməni təsiri ilə izah etmək olarmı?

**Media məsələləri üzrə ekspert Yadigar Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu amil doğrudan da açıq nəzərə çarpır və çoxlu sual yaratmış olur:** "F.Abbasov kifayət qədər tanınmış jurnalistdir. Onun həbsi ciddi rezonansa səbəb olub. Yəni elə bir hadisə deyil ki, kimsə "xəbərimiz olmayıb" deyib yaxasını kənara çəkə bilsin. Beynəlxalq hüquq-müdafiə və jurnalist təşkilatlarının susqunluğunu bir neçə amillə izah etmək olar. Erməni barmağı burda birincidir. Çünki dünyanın nüfuzlu media qurumları və dediyiniz profilli təşkilatlarda çoxlu sayda erməni əsilli jurnalist çalışır. Onlar da hər vəchlə, imkan düşdükcə, Azərbaycana aid olan məsələlərdə işi öz istədikləri səmtə yönəldə bilirlər. Burada başqa bir cəhət də var. Lap erməni məsələsini qoyaq bir qırağa. Artıq bir həftədir bir jurnalistin peşə fəaliyyətinə mane olunub, ona qarşı qeyri-insani rəftar var ortada, amma həmin təsisatlar tam susqundurlar. Həmin təşkilatlar bu qınağın altından necə çıxa biləcəklər? Fuada qarşı hərəkətlər beynəlxalq qanunların kobud şəkildə pozulması ilə həyata keçirilib. Onun azadlığı tələb edilməsə də, ən azından, faktın pislənməsi ilə bağlı mövqe ortaya qoyulmalı idi. Bəli, biz Azərbaycanda baş verən xırda hadisəyə belə onların toplum şəklində sərt bəyanatlar verməsini görmüşük. Bu hadisə bir daha bizim həmin təşkilatların fəaliyyətində ikili standartların olduğu ilə bağlı dediklərimizi təsdiq etmiş olur. Əminəm ki, belə bir situasiya ilə hər hansı bir avropalı jurnalist, hətta bloger rastlaşsaydı, biz tam fərqli mənzərənin şahidi olardıq. Çox uzağa getməyək, Lapşinlə bağlı məsələ arasında bir paralel aparsanız, hər şey aydın olar. Çox təəssüf ki, özünü ədalət carçısı kimi təqdim edən qurumlar F.Abbasovla bağlı məsələdə həm erməni əlinə oynayır, həm də öz üzərlərinə düşən missiyanı zərrə qədər də olsun yerinə yetirmirlər".

**Məhəmmədəli QƏRİBLİ**

# Səudiyyə İƏT-in Məkkə zirvəsində anti-İran prosesi başlatmaq istəyir - Azərbaycanın mövqeyi...

## Zərdüşt Əlizadə: "Azərbaycan bu oyunlara qoşulmamalıdır"

**Səudiyyə Ərəbistanının kralı Salman ərəb dünyasının liderlərini Məkkədə təcili toplanmağa çağırıb. Buna səbəb İranla münasibətlərin kəskinləşməsidir. Birləşmiş Ərəb Əmirliyi sahilləri yaxınlığında neft tankerlərinə edilən təxribat və ərəblərin iki neftötürmə stansiyasına xusitlərin hücumu monarxı Ərəb Dövlətləri Liqasına və İran Körfəzi Dövlətlərinin Əməkdaşlıq Şurasına çağırış etməyə vadar edib.**



*"Ona qarşı olan hər hansı koalisiyaya qoşulmamışıqsa, o mövqeyimizdə də qalmalıyıq"*

Sammit iyunun 30-da Məkkə şəhərində toplanacaq. Həmin gün Məkkədə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yüksək səviyyəli görüşü planlaşdırılıb.

Krallığın xarici işlər naziri Adil Əl Cubeyr bildirib ki, Ər-Riyad regionda müharibə başlamasını istəmir və bunun qarşısını almaq üçün əlindən gələni edir: "Lakin Səudiyyə Ərəbistanı bütün gücü və qərarlılığı ilə təxribatlara cavab verəcək", - deyən nazir bütün dünya ölkələrini "regionda təhlükəsizlik və sabitliyi pozmağa çalışan Tehranın xaos toxumları səpməsinin" qarşısını almağa çağırıb.

Məlum olduğu kimi, Azərbaycan yaxın qonşuluq münasibətlərini nəzərə aldığı üçün, İran əleyhinə hər hansı bir kampaniyada iştirak etməyib. İndi isə Səudiyyə Ərəbistanı hətta Azərbaycanın da üzv olduğu İslam Əməkdaşlıq Konfransına üzv olan ölkələri də anti-İran koalisiyasına cəlb etməyə, orada hansısa prosesi başlatmağa çalışır. Belə olan halda, Azərbaycan hansı mövqeni tutmalıdır?

**Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Səudiyyənin bu cəhdlərinin kökündə heç bir ciddi motiv dayanmır:** "Səudiyyə kralı, faktiki olaraq, həmin bölgədə və İslam dünyasında ABŞ-ın nökəri funksiyasını həyata keçirir. Ona Trampdan göstəriş gəlib ki, belə görüntü yaratsın. Guya İran bölgədəki stabilliyi pozur, ərəb ölkələrinə qarşı təhlükə mənbəyinə çevrilib. Əslində isə bütün bu işləri elə Səudiyyənin özü görür. Bu gün Səudiyyə Yəmənə hücum edib məzhəb zəminində orada ərəbləri qırır. Yəqin ki, bir qrup satqın, öz millətinə zülm edən ərəb ölkələri də toplaşıb orada çığır-bağır salacaqlar ki, guya İran bunları öldürür. Ancaq bütün bu proseslərin İrana heç bir təsiri olan deyil. Azərbaycan bu oyunlara qoşulmamalıdır. Biz İranla qonşu, dost ölkəyik. Əvvəlcədən necə ona qarşı olan hər hansı koalisiyaya qoşulmamışıqsa, o mövqeyimizdə də qalmalıyıq".

Politoloqun sözlərinə görə, Fars körfəzindəki gərginliyin səbəbi Amerikanın onun planlarına müqavimət göstərən sonuncu müsəlman dövlətini dağıtmaq niyyətindən irəli gəlir: "Bütün müsəlman dövlətlərini - Sudanı, Tunisi, Liviyanı, Suriyanı, İraqı, Yəməni, bir sözlə, hamısını dağıdıblar. İşğalı və dünya hegemonluğunu tanımayan bir İran qalıb.

İranı da dağıtmaq istəyirlər. Bunun üçün böhtan söyləyirlər. Bəhanələri də budur ki, guya İran nüvə öhdəliklərini yerinə yetirmir. Halbuki, bəzi Avropa ölkələri bunun əksini söyləyirlər. Bir sözlə, biz yaxın qonşumuz olan ölkəyə qarşı bu cür məkrli planlarda iştirak etməməliyik".

**Məhəmmədəli QƏRİBLİ**

**Son proseslər göstərdi ki, Ermənistandakı "Qarabağ klanı" Paşinyandan ilk revanşını aldı və ona sarsıdıcı zərbə vurdu. Həmin klanın "xaç atası" sayılan Köçəryan həbsdən çıxarıldı, özü də Paşinyanın iradəsinə zidd olaraq.**

# Paşinyan Köçəryanı həbsdən çıxaran rusiyapərəstlərdən qisas üsulunu tapdı - KTMT baş katibi məsələsi yenidən qaytarılır...

***Daşdəmir Əliyev:** "Belə olsa, KTMT-dən ikinci zərbəni alacaq"*



*"Paşinyan oradakılara və ölkəsindəki rusiyapərəstlərə bu üsulla təzyiq etmək kimi gücə və nüfuza sahib deyil"*

Paşinyan gözəl anlayır ki, həmin klan əsas ilhamı Rusiyadan alır. Bu səbəbdən də hansısa vasitələrlə düçar olduğu Köçəryan məğlubiyyətini kompensasiya etmək üçün rusiyapərəstlərdən qisas almaq yollarını düşünür. Deyəsən, bu yöndə ilk hədəfini müəyyənləşdirib. Artıq Ermənistanın rəsmi dairələri bəyan edirlər ki, KTMT-nin Bişkekdəki toplantısında Ermənistanın sədrlik məsələsini yenidən gündəmə gətirəcəklər: "2020-ci il yanvarın 1-də Belarus nümayəndəsinin KTMT-nin baş katibi vəzifəsinə təyin ediləcəyinə dair qərar yoxdur. Biz iddia yox, yalnız ehtimal edə bilərik ki, KTMT-nin baş katibi 2020-ci il yanvarın 1-də Belarus nümayəndəsi təyin ediləcək. Ona görə ki, belə bir qərar hələ ki, yoxdur. Nə vaxt belə bir qərar olarsa, yalnız o zaman biz bununla bağlı hansı proseslərin baş verə biləcəyini iddia edə bilərik.

Baş katib bu ölkələrə xidmət göstərən katibliyin inzibati rəhbəri olmaqla, qurumun fəaliyyət axarını, orqanların işini təmin etməyə cavabdehdir. Biz baş katibliyə namizədi onun nə dərəcədə idarə edə bilməsi ilə qiymətləndiririk. Qərar yalnız konsensus əsasında qəbul olunur. Növbəti rotasiya qaydası əlifba sırası üzrə 2020-ci il yanvarın 1-dən başlayır".

Göründüyü kimi, Ermənistan həm ölkədəki rusiyapərəstlərə, həm də onları müdafiə edən Rusiyaya mesaj verir ki, münasibətləri KTMT üzərindən yenidən gərginləşdirə bilər. Paşinyanın düşündüyü bu qisas üsulu ona hansısa fayda verə bilərmi?

**Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu cəhdləri birbaşa ara qarışdırmağa yönəlib:** "Məlum olduğu kimi, Paşinyan hakimiyyətə gələndə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturovu həbsə saldı. Bunun da nəticəsində o, tutduğu vəzifədən azad olundu. Belə qərarı KTMT Şurası qəbul etdi. İrəvanYuri Xaçaturovun "1 mart" işinə təqsirləndirilən şəxs qismində cəlb olunduğu üçün onun geri çağırılması haqda qərar qəbul etmişdi. Bu da belə əsaslandırılırdı ki, 2008-ci il martın 1-də nümayişin dağıdılması zamanı silahdan istifadə edilib, səkkizi mülki şəxs, ikisi isə polis əməkdaşı olmaqla on nəfər həlak olub. Yuri Xaçaturov kütləvi etiraz aksiyaları zamanı İrəvan Silahlı Qüvvələr qarnizonunun rəisi olub və istintaqın versiyasına görə, nümayişin dağıdılmasına rəhbərlik edib. Maraqlıdır ki, Rusiyanın təzyiqlərindən sonra Paşinyan Xaçaturovu da həbsdən zamin müqabilində buraxmalı oldu. Ermənistanın sabiq prezidenti Köçəryan da eyni cinayət işi üzrə məsuliyyətə cəlb edilmişdi. Göründüyü kimi, Paşinyan onu da uzun müddət həbsdə saxlaya bilmədi. Həmin vaxt KTMT üzvləri Ermənistanı Xaçaturovla bağlı qərarı verməkdən çəkindirmək istədilər. Onlar hesab edirdilər ki, baş katibin həbsi KTMT-nin də nüfuzunu zədələyir. Paşinyan bütün təklifləri geri çevirdi. Nəticədə o, KTMT üzvləri arasında olan etibarını da tam itirdi. Elə vəziyyət yarandı ki, üzv dövlətlər bu ölkənin daha bir nümayəndəsini təşkilatın idarəçiliyində görmək istəmədiklərini açıq bəyan etdilər. Ermənistan hakimiyyəti hər zaman KTMT-yə üzv ölkələrə Azərbaycanla əlaqələri inkişaf etdirməməsi üçün təsir etməyə çalışıb. Lakin rəsmi İrəvanın bu cəhdləri boşa çıxdı, çünki Azərbaycan iqtisadi və hərbi sahədə əməkdaşlıq üçün daha sərfəli ölkədir".

Ekspertin sözlərinə görə, rəsmi Moskva Paşinyanı həmin əməlinə görə kəskin qınadı. Onlar hesab edirdilər ki, Ermənistan əvvəlcə Yuri Xaçaturovu qurumun baş katibi vəzifəsindən geri çağırmalı və yalnız bundan sonra ona qarşı cinayət təqibi başlatmalı idi: "Həmin vaxt Nazarbayev, Lukaşenko Paşinyanı açıq şəkildə tənqid etdilər. Ermənistan çarəsiz qalıb Rusiyanın müvəqqəti sədrliyini qəbul etdi. Bundan sonra rotasiya qaydasında sədrlik Belarusa keçməlidir.

**Amma Ermənistanda baş verən son proseslərdən sonra Paşinyan yenidən bu məsələni gündəmə gətirib və kimlərəsə mesaj vermək istəyir. Amma düzgün qisas yolunu seçməyib. Çünki belə olsa, KTMT-dən ikinci zərbəni alacaq. Çünki Paşinyan oradakılara və ölkəsindəki rusiyapərəstlərə bu üsulla təzyiq etmək kimi gücə və nüfuza sahib deyil".**

***Məhəmmədəli QƏRİBLİ***

**İran İslam Respublikasında türk dilinin tədris edilmədiyi məlumdur. Ermənilərdən və burada yaşayan digər xalqlardan fərqli olaraq, İranda yaşayan Azərbaycan türklərinin öz məktəbi yoxdur, onlar fars dilində təhsil alırlar. Uzun illərdir İranın orta və ali məktəblərində türk dilinin tədrisi aktual olsa da, bu məsələ öz həllini tapmayıb. Bu da, əlbəttə, bizi ciddi narahat etməkdədir.**

# Tehran Universitetində Türk dili bölməsi...

***Sədrəddin Soltan:** "Tehran Universitetində Türk dili bölümünün açılması İran konstitusiyasında yer alan Azərbaycan türklərinin milli-mədəni haqlarının təmin edilməsi ilə bağlı maddənin icra olunması deyil"*



*"Bu, sadəcə olaraq, İranla Türkiyə arasında mədəniyyət, təhsil sahəsində əməkdaşlıqla bağlı imzalanan müqavilənin icrasıdır"*

Deyəsən son zamanlar bu sahədə "buzlar əriməyə" başlayıb. Belə ki, yayılan məlumatlara görə, İranın Tehran Universiteti Türk dili bölməsini açmağa hazırlaşır. Tehran Universitetinin rektoru Mahmud Ahmedabadi bildirib ki, universitet Türk dili bölməsini açmağa hazırdır.

O, həmçinin, vurğulayıb ki, rəhbərlik etdiyi universitetdə türk dili kurslarını açmağa, türk şagirdlərini qəbul etməyə hazırdırlar. Rektor qeyd edib ki, Türkiyə ilə geniş əməkdaşlığa sahibdirlər. M.Ahmedabadi, həmçinin, deyib ki, iki ölkə regionda elm və texnologiya sahəsində öndədir. Bu məqsədlə əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini vurğulayan rektor bunun əhəmiyyətini qeyd edib.

İranın Tehran Universitetində Türk dili bölümü hansı zərurətdən irəli gəlir? İran bununla türk dilinin tədrisinin genişləndiriləməsini nəzərdə tutur?

**Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, şərqşünas Sədrəddin Soltan "Bakı-Xəbər"ə bildirdi ki, Tehran Universitetində Türk dili bölümünün açılması heç də türk dilinin geniş miqyasda tədris ediləcəyi anlamı daşımır.** "İstər Azərbaycan, istərsə də Türkiyə türkcəsi olsun, bizim üçün çox əhəmiyyətli məsələdir. Tehran Universitetində Türkiyə türkcəsində hansısa bir kursun açılmasının Azərbaycan türklərinin milli haqlarının təmin olunmasına heç bir aidiyyəti yoxdur. Tehran Universitetində Türk dili bölümünün açılması İran konstitusiyasında yer alan Azərbaycan türklərinin milli-mədəni haqlarının təmin edilməsi ilə bağlı maddənin icra olunması deyil. Bu, sadəcə olaraq, İranla Türkiyə arasında mədəniyyət, təhsil sahəsində əməkdaşlıqla bağlı imzalanan müqavilənin icrasıdır. Türkiyənin bir sıra universitetlərində fars dili tədris olunur, onun qarşılığı olaraq İranda da buna cəhd göstərilir. Əvvəllər də analoji hallar olub. Tutaq ki, İranın hansısa universitetində Türk dili fakültəsi açmağa cəhd ediblər, türk dilinin fakültativ dərs kimi orta və ali məktəblərdə tədrisi məsələsi gündəmdə olub. Yəni bu da İranın özünü xoşgörü kimi göstərməsinə cəhddən başqa bir şey deyil. Bununla həm də Güney Azərbaycandakı türklərin ürəyini ələ almaq istəyirlər. Halbuki, İran Güney Azərbaycan türklərinin milli-mədəni haqlarının hansısa formada təmin olunmasına heç yaxınlaşmır da.

Güney Azərbaycan türklərinin haqlarını təmin etməli olan İran rejimi bu gün fars dilinin təmizliyinin təmin olunmasını ortaya qoyur. Bir neçə gün əvvəl İranın Ali dini rəhbəri Seyid Əli Xamneyi bir qrup şairi qəbul edib və o şairlərə deyib ki, gəlin, fars dilini yad təsirlərdən qoruyaq, onun təmizliyini saxlayaq. Ancaq o, öz ana dilində bir məktəbin olmamasından narahat deyil" - deyə S.Soltan qeyd etdi.

**S.Soltanın sözlərinə görə, Tehran Universitetində Türk dili bölməsində dərslər fakültativ məşğələ kimi keçiriləcək. O qeyd etdi ki, bu tədris üçün ortada dərs vəsaitləri, proqramı da yoxdur.**

***İradə SARIYEVA***

Məlumata görə, erməni separatçıları növbəti təxribata hazırlaşırlar. Belə ki, 3-15 iyunda Dağlıq Qarabağda tanınmayan "respublikaların" "futbol çempionatı"nı keçirməyi planlaşdırırlar. Qeyd edək ki, separatçı qurum ötən ildən buna hazırlaşır. İşğal altında olan Xankəndi, Ağdərə, Xocavənd və Əsgərandakı stadionlardan bu məqsədlə istifadə edəcəkləri gözlənir.

# Qondarma "DQR"də tanınmamış rejimlərin futbol turnirinə hazırlıq gedir, təşkilatçılıqda şübhəli bir xarici qurumun barmağı var...

## *Fikrət Sadıqov: "Azərbaycan bunun qarşısını almaq üçün nə mümkündürsə, onu etməli və müəyyən qabaqlayıcı addımlar atmalıdır"*



*"ATƏT-in Minsk Qrupunun həmsədrləri məlumatlandırılmalıdır"*

O da məlum olub ki, iştirakçılar arasında bu "respublikalar"ın komandaları var: Abxaziya, Cənubi Osetiya, Padaniya, Sardiniya, Laplandiya, Luqansk və Donetsk. Sözügedən separatçı qurumların 4-ü Rusiyanın nəzarəti altındadır. Başqa bir tərəfdən, separatçı qurum özü kimi qondarma qurumları "çempionata" dəvət edib.

Qeyd edək ki, sözügedən "çempionatı" keçirən "ConIFA" (Confederation of Independent Football Associations) təşkilatıdır. Bu təşkilat FİFA-ya daxil deyil. Separatçı bölgələri ətrafında birləşdirən təşkilatın mənzil-qərargahının İsveçdə yerləşdiyi deyilir.

Görünən odur ki, erməni tərəfi qondarma "DQR"in təbliğ edilməsi üçün bütün qanunsuz vasitələrdən istifadə edir. Gah turizm adından istifadə edib işğal altında olan ərazilərə qanunsuz səfərlər təşkil edirlər, gah da digər vasitələrə əl atırlar. İndi də "futbol çempionatı" adı altında növbəti təxribata hazırlaşırlar. Bunun qarşısını almaq üçün hansısa addımlar atmaq mümkündürmü? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, erməni separatçıları bundan təbliğat məqsədi üçün istifadə etmək istəyirlər:** "Əvvəl də buna bənzər hallar olub. Bu da o baxımdan növbəti bir təxribatdır. Yəni separatçı qurumları dəvət edib "çempionat" keçirmək istəyirlər. Tanınmayan separatçı qurumların ora gəlməsi heç də o demək deyil ki, bunu beynəlxalq idman qurumları qəbul edəcək. "ConIFA" separatçıları təmsil edən qondarma bir qurumdur. Separatçı bölgələr öz aralarında idman tədbiri keçirmək istəyirlər. Sadəcə, qondarma "DQR" istəyir bundan təbliğat məqsədi üçün istifadə etsin. Azərbaycan bunun qarşısını almaq üçün nə mümkündürsə, onu etməlidir və müəyyən qabaqlayıcı addımlar atmalıdır. Hesab edirəm ki, bununla bağlı, ilk növbədə, ATƏT-in Minsk Qrupunun həmsədrləri məlumatlandırılmalıdır. Onlardan bununla bağlı müəyyən tədbirlərin görülməsini tələb etməliyik. Digər beynəlxalq qurumlara da müraciət etmək olar. Ora tanınmış bir ölkədən, beynəlxalq idman təşkilatından hansısa nümayəndə gələrsə, o zaman Azərbaycan həmin şəxsin adını "qara siyahı"ya salmalıdır. Həmin şəxs ölkəyə buraxılmamalıdır. Fikrimcə, bu istiqamətdə bizim müəyyən addımlarımız ola bilər.

Düşünürəm ki, bu yöndə Azərbaycan bəzi addımlar atacaq. Bizdən nə asılıdırsa, onu etməliyik. Zatən bunu edirik. Elə məsələlər var ki, bizdən asılı deyil".

**Vidadi ORDAHALLI**

Məlum olduğu kimi, demokratiya adı altında hakimiyyətə gələn Ermənistan Baş naziri Nikol Paşinyan antidemokratk tərzdə xalqı məhkəmələrə qarşı qaldırmaqla bağlı çağırış etdi. Ölkədəki bütün məhkəmələri blok etməklə bağlı çağırışlar səsləndirdi. Onun sözlərinə görə, vətəndaşların haqlarını pozan qərarlar verən bütün hakimlər qovulmalı və ya istefaya getməlidirlər.

# Paşinyan əhalini məhkəmələrə qarşı açıq hücuma çağırdı, Ermənistanı demokratik ölkə sayan bəzi Avropa institutları susdu...

## *Məhəmməd Əsədullazadə: "Avropa təsisatları ikili standartlardan çıxış edib Ermənistanda yaşanan rəzaləti görmək istəmirlər"*



*"Paşinyanın xalqı məhkəmə sisteminə qarşı inqilaba çağırması ölkədə hüquq sisteminin fiaskosudur"*

Həmçinin, Paşinyan son hadisələrin Ermənistanda xalqın etibar etdiyi məhkəmə hakimiyyətinin olmadığını göstərdiyini bildirib. Paşinyan hazırkı məhkəmələrin əvvəlki korrupsiyalaşmış sistemin qalığı olduğunu deyib. Baş nazir məhkəmələrə bundan öncə öz dəyərlərinə qayıtmaq üçün bir il vaxt verildiyini, amma indi məhkəmələrə cərrahi müdaxilənin vaxtının gəlib çatdığını bildirib. O, Ermənistanda fəaliyyətdə olan bütün hakimlərin attestasiya olunması tələbi ilə çıxış edib. Baş nazir hesab edir ki, Avropa İnsan Haqları Məhkəməsinin qərarları ilə təsdiqlənmiş vətəndaşların hüquqlarının kobud pozulması hökmlərinin müəllifi olan bütün hakimlər istefa verməli, tutduqları vəzifələrdən azad olunmalıdır.

Paşinyan icraedici qurumun təmsilçisi olaraq, faktiki olaraq, kobud şəkildə və göz görəgörə məhkəmələrin fəaliyyətinə müdaxilə edir. Məhkəmələrə qarşı açıq tərzdə hədələyici məzmunda çağırışlar səsləndirdi və bir növ, bununla onlara meydan oxuyur. Qanunvericiliyə görə, məhkəmələr müstəqil olmalıdır və onların fəaliyyətinə icraedici strukturların müdaxiləsi qadağandır. Ancaq Paşinyan bütün bunları tapdalamasına rəğmən, başda Avropa İttifaqı olmaqla, digər Avropa təsisatları Ermənistanda yaşanan rəzalətə reaksiya verməmədilər. Baxmayaraq ki, bir müddət əvvəl Ermənistanı klassik demokratiya ölkəsi sayırdılar. Demokratiyadan dəm vuran Avropa təsisatları buna görə Paşinyana etiraz etmədilər.

Maraqlıdır, Avropa institutları niyə susdular?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bunu bir sıra amillərlə əlaqələndirdi:** "Ermənistanda baş verən siyasi və hüquqi böhran Paşinyan iqtidarının son dərəcə nizamsız hakimiyyətinin təzahürüdür. Paşinyan bir il ərzində ölkəsində hüququn aliliyini təmin edə bilmədi, məhkəmələr keçmiş hakimiyyətin nəzarətində qalmaqdadır. Eks-prezident Robert Köçəryanın məhkəmənin qərarı ilə həbsdən azad olunmasına Paşinyanın təpkisi və xalqı məhkəmə sisteminə qarşı inqilaba çağırması ölkədə hüquq sisteminin fiaskosudur. Paşinyan bununla ölkəyə və dövlət qurumlarının ayrı-ayrı qollarına nəzarət etmədiyini göstərdi. Hesab edirəm ki, Paşinyanın bu siyasəti ölkədə məhkəmə hakimiyyətinin laxlamasına və gələcəkdə də onların icra hakimiyyətinə tabe olacağına zəmin yaradır. Paşinyan istəyir ki, bütün dövlət qurumları onun istəklərini şəksiz yerinə yetirsinlər. Ancaq bu, Ermənistanda avtoritar sistemin qurulması deməkdir. Paşinyanın məhkəmə sisteminə inqilab elan etməsi Avropanın da seyrçi qalmasına gətirdi. Görünür, Avropa təsisatları ikili standartlardan çıxış edib Ermənistanda yaşanan rəzaləti görmək istəmirlər. Bu səbəbdən hələ də bir reaksiya yoxdur. Fikrimcə, olmayacaq da. O da ola bilər ki, Avropa qurumları ölkədə Rusiyaya bağlı məhkəmələrin iflasında maraqlıdırlar. Ona görə də öz səssizliklərini qoruyurlar. Buna baxmayaraq, reallıq odur ki, Ermənistana yanaşmada mütləq seyrçi mövqe tuturlar. Çünki məhkəmə sisteminə qarşı xalqı etiraza çağırmaq birbaşa Paşinyanın məhkəmə sisteminə müdaxiləsidir. Ona görə də Avropa İttifaqı özünə hörmət edirdisə, mütləq buna reaksiya bildirməli idi. Ermənistan bu gün özünün siyasi və hüquqi deqradasiyasını yaşayır. Paşinyan bununla ölkəsini inkişafa deyil, fiaskoya aparır".

**Vidadi ORDAHALLI**

**Hələ də tam şəkildə məğlub edilməyən İŞİD terrorçu qruplaşmasının bu dəfə MDB məkanı üçün yaratdığı təhdidlərin miqyası genişlənməkdədir. Digər tərəfdən, hadisələrin inkişaf axarı göstərir ki, sözügedən qruplaşmanın maraq dairəsində yer alan məqamlardan biri Cənubi Qafqaza gəlmək və burada mövqelərini möhkəmləndirməkdir. Bunun üçün İŞİD terroru dövlət siyasəti halına gətirmiş Ermənistandan yararlanmağı düşünür.**

# Ermənistanda rus əsgərinin İŞİD-çi tərəfindən öldürülməsi - Ermənistan İŞİD-in Qafqaza gəlişini tətikləyir...

Bu barədə danışmazdan öncə qeyd edək ki, İŞİD-in MDB məkanına marağının artması artıq rəsmi səviyyələrdə də etiraf edilir. Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin (FSB) rəhbəri Aleksandr Bortnikov bu xüsusda vurğulayır ki, İŞİD ekstremist qruplaşmasının üzvləri Əfqanıstanın şimalına, Orta Asiyadakı keçmiş sovet respublikaları ilə sərhədə yığışır. ABŞ ordusu hazırda Əfqanıstanda 2 minədək İŞİD döyüşçüsünün olduğunu bildirir. Bortnikov isə bu sayın daha çox olduğunu deyərək, 5 minədək İŞİD döyüşçüsünün Əfqanıstanın şimal vilayətlərinə yerləşdirilməsindən narahatlığını bildirib. Federal Təhlükəsizlik Xidmətinin direktoru hazırda qruplaşmaya qarşı mübarizə aparıldığını da diqqətə çatdırıb: "Azərbaycan, Tacikistan, Qırğızıstan və Özbəkistandan olan tərəfdaşlarla əməkdaşlıq nəticəsində İŞİD və digər beynəlxalq terror təşkilatlarının 8 yuvası aşkar və məhv edilib". Onun sözlərinə görə, MDB xüsusi xidmət orqanları arasındakı əməkdaşlığın əsas istiqamətlərindən biri də əməliyyat məlumatlarının daimi mübadiləsidir. Əldə edilən məlumatlar beynəlxalq terrorla mübarizə məlumat bankına, MDB Antiterror Mərkəzinin xüsusi məlumat bankına və kollektiv istifadə üçün digər informasiya sistemlərinə əlavə olunur. Aparılan mübarizəyə rəğmən isə İŞİD-in MDB məkanına marağı artır və bura Qafqaz da daxildir.

Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlamalar isə İrəvanın İŞİD-ə artan rəğbətinin həm də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olduğunu göstərir. Məsələ burasındadır ki, Paşinyan İŞİD-i regiona gətirməklə Qarabağ münaqişəsinin yenidən alovlanmasının qarşısını ala biləcəyini düşünür. O bu fonda iddia edir ki, Dağlıq Qarabağda eskalasiya İraq və Suriyadan qaçan islamçı döyüşçüləri məhz Qafqaza gətirə bilər: "Siz İran ətrafında hansı gərgin situasiyanın yarandığını görürsünüz. Bu gərginlik artmaqda davam edir. Suriyada böyük sayda islamçı radikal qruplaşma var. Onlar anlayırlar ki, artıq İraq və Suriyada onlara yer yoxdur. Bizim məlumatımıza görə, onlar bu gün özləri üçün yeni yer axtarırlar. Əgər bizim regionda hansısa yeni eskalasiya olsa, onlara bu, regionda peyda olmaq üçün yaxşı bəhanə olacaq. Onlar üçün bu çox rahat nöqtədir. Buradan onlar öz fəaliyyətlərini İran, Rusiya, bütün Qafqaz və Mərkəzi Asiyaya yönəldə bilərlər". Hesab edilir ki, belə mövqe nümayiş etdirməklə erməni nazir İŞİD-in ölkəsinə gəlməsinə haqq qazandırmağa çalışır.




Xatırladaq ki, bir müddət əvvəl bu xüsusda Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizmə Müqavimət Baş İdarəsinin rəisi Oleq İlyinix da maraqlı açıqlamalar vermişdi: "Suriya və İraqdakı məğlubiyyətindən sonra İŞİD öz maraqlarını Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Ermənistan ərazilərinə yönləndirir". Onun sözlərinə görə, İŞİD terrorçuları bütün dünyada terror fəaliyyətləri həyata keçirə biləcək ümumdünya terror şəbəkəsinin, "yatan" dairələrin yaradılması üzrə planlar hazırlayırlar. İndilikdə Əfqanıstanın MDB və Mərkəzi Asiya ölkələri ilə həmsərhəd olan şimal əyalətində talibərin və İŞİD silahlılarının mövqelərinin möhkəmləndiyini vurğulayan İlyinix isə aşağıdakı məqamları da diqqətə çatdırıb: "Suriya, İraq və Əfqanıstanda İŞİD-in tərəfində minlərlə MDB vətəndaşı döyüşdüyü, onların öz ölkələrinə qayıtmaq istəməsi labüd olduğu üçün bu proseslər xüsusi təhlükə kəsb edir. Belə halları nəzərə alaraq, biz diqqəti tərəfdaşlarla qarşılıqlı fəaliyyət üzərində cəmləyirik". Beləliklə, Moskva İŞİD-in Əfqanıstana toplaşmasından çox narahatdır. Oradan terrorçuların Mərkəzi Asiya dövlətlərinə və Rusiyaya sızması ehtimalı qaçılmazdır. Təbii ki, terror qruplarının hədəflərindən biri də Cənubi Qafqazdır. Öz növbəsində, Cənubi Qafqazda İŞİD terrorunun başlamasına yardım edən tərəf qismində isə İrəvanın çıxış edəcəyi şübhə doğurmur. Bu fonda Ermənistanda İŞİD tərəfdarlarının peyda olması da heç kimə sirr deyil. Məsələn, elə Gümrüdəki 102-ci hərbi bazanın bir rus əsgərinin İŞİD tərəfdarı Arman Cancuğazyan tərəfindən bıçaqlanaraq öldürülməsi halı bunun real təsdiqidir. Digər tərəfdən, Rusiya Suriyada İŞİD-in məhv edilməsindən sonra terrorçuların Rusiyadan intiqam almağa çalışacaqlarını yaxşı bilir. Bu baxımdan rus hərbçiləri Ermənistanda İŞİD terrorçuları üçün olduqca asan hədəf ola bilər. İŞİD-ə sadiq qalan ermənilərin mövcudluğu terrorçuların müəyyənləşdirilməsi və məhv edilməsini daha da çətinləşdirir. Məhz bu səbəbdən hesab edilir ki,İŞİD-in Qafqaza gəlməsinə qarşı olan Rusiya artıq erməni terrorunu da diqqətə almalıdır.

Məsələ ondan ibarətdir ki, terrorla mübarizə avtomatik olaraq Cənubi Qafqazda erməni terroru problemini yeni səviyyədə gündəmə gətirir. İndiyə qədər Moskva beynəlxalq terrorla mübarizədə öz sərhədləri yaxınlığında illərdir tüğyan edən erməni terroru ilə əlaqəli heç nə deməyib. Bu isə bütövlükdə beynəlxalq terrora qarşı mübarizənin yarımçıq olması anlamına gəlir. Belə çıxır ki, təşkilata daxil olan ölkələrin hər biri etməni terroruna qarşı mübarizə ilə bağlı mövqeyini dəqiqləşdirməlidir. Erməni terroru ilə mübarizə qəbul edilməyəcəksə, İŞİD-lə savaş da formal xarakter daşıyacaq. Özü də nəzərə alınmalıdır ki, Ermənistan İŞİD və digər tererorçularla getdikcə daha sıx işbirliyinə gedir. Bu fonda müxtəlif terrorçu qrupların təkibinə qoşulan ermənilərin sayında da ciddi artım qeydə alınır. Həmin terrorçuların çox vaxt ya Ermənistanda, ya da işğal edilmiş Azərbaycan ərazilərində məskunlaşması barədə də məlumatlar mövcuddur. Artıq əldə edilən məlumata görə, Suriyada PKK terror təşkilatının tərkibində ermənilərdən ibarət yeni terror qrupu yaradılıb. Qrupun tərkibinə Ermənistandan Suriyaya gedən daşnak-ermənilər və Suriya ərazisində yaşayan bəzi erməni qruplar qoşulub. PKK-nın tərkibində qurulan bu erməni qruplaşma terror təşkilatının Suriya qolu olan YPG-yə tabedir.

**Həmin tererorçular isə vaxtaşırı Ermənistanda peyda olurlar. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, Ermənistan Suryiada sıxışdırılmış İŞİD üçün də maraq obyektidir. Xatırladaq ki, İŞİD-ə qədər ASALA, PKK və digərləri Ermənistanda özünə yer edə bilib. İndi İŞİD də Ermənistana üz tutmaq niyyətindədir. Bu isə təkcə Azərbaycana yox, Türkiyəyə, həta Yaxın Şərqdə öz planları olan Rusiyaya da müəyyən təhdidlər yaradır.**

*Tahir TAĞIYEV*



**Moskva Əfqanıstanın şimalındakı Xorasanda toplaşan İŞİD terrorçularından narahatdır.**

# Moskvadan böyük təhlükə xəbərdarlığı... 5 minə yaxın İŞİD-çi MDB sərhədinə toplaşır

**Sözügedən terrorçular bu bölgəyə Suriyadan gəlib.**

Baki-xeber.com xəbər verir ki, Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin (FTX) rəhbəri Aleksandr Bortnikov Əfqanıstanın MDB ölkələri ilə sərhəd bölgələrinə 5 minə yaxın terrorçunun toplaşdığını bəyan edib.

FTX rəhbəri bildirib ki, terrorçular Əfqanıstanın şimalına, Orta Asiyadakı keçmiş sovet respublikaları ilə sərhədə yığışır.

"İraq və Şam İslam Dövlət (İŞİD) terror təşkilatının filialı olan "Vilayət Xorasan" hazırda təxminən 5 minə qədər yaraqlısını MDB ölkələri ilə sərhəd olan Əfqanıstanın şimal rayonlarına cəmləşdirib" - Bortnikov deyib.

FTX rəhbərinin sözlərinə görə, Suriyada məğlubiyyətə uğradılan İŞİD terrorçuları bu ölkədən ayrılaraq, Xorosanda yerləşiblər. Bortnikov xüsusilə terrorçu qrupların Əfqanıstanın şimal bölgəsində yenidən cəmləşməsinin narahatlıq doğurduğunu deyib. Moskva, həmçinin, keçmiş Sovet ölkələri kəşfiyyat şeflərinə də bununla bağlı xəbərdarlıq edib və sərhəd nəzarətini gücləndirməyə çağırıb.

Qeyd edək ki, ABŞ ordusu hazırda Əfqanıstanda 2 minədək İŞİD döyüşçüsünün olduğunu bildirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan Qarabağ müharibəsində qaçılmaz məğlubiyyətin məsuliyyətini qondarma rejimin üstünə qoymaq üçün əsaslar hazırlayır

**Bu gün Cənubi Qafqazda ciddi təhdid mənbəyi kimi çıxış edən Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyi artıq dünya miqyasında da açıq etiraf olunmaqdadır. Çünki münaqişənin hər an qaynar mərhələyə keçmək ehtimalı getdikcə artır və belə hal regionda həyati maraqları olan böyük güclər, o cümlədən Rusiya, ABŞ, Avropa İttifaqı üçün də sərfəli sayılmır.**

Digər tərəfdən, məhz həmin böyük güclər artıq dünyanın bir çox bölgəsində qarşı-qarşıya gəldiklərindən, eyni halın Qafqazda da təkrarlanmasını istəmirlər. Həm də burada o da nəzərə alınır ki, Qafqazda ziddiyyətlər dərhal bütün MDB məkanını, o cümlədən də Mərkəzi Asiyanı əhatə edəcək. Bu isə onsuz da qarşıdurmalarda bir-birinə qarşı yetərincə güc sərf edən dövlətlər və təşkilatlar üçün indiki halda qətiyyən sərfəli sayılmır.

Bütün bu qeyd edilənlər fonunda artıq bəllidir ki, dünya nizamının müəyyən edilməsində rol oynayan ölkələr Qarabağ konfliktinin dinc müstəvidə çözümünü istəyir. Onlar eyni zamanda bunun da fərqindədirlər ki, məsələnin sülh yolu ilə həlli üçün artıq əməli addımların atılmasının vaxtıdır. Əks təqdirdə savaş qaçılmaz olacaq və ərazi bütövlüyünün bərpası prosesinin uzanmasını istəməyən Azərbaycan buna tam hazırdır. Məhz belə vəziyyətdə münaqişənin dinc müstəvidə həlli üçün Qafqazda böyük təsir imkanlarını hələ də saxlamağı bacaran Rusiyanın əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunur. Eyni sözləri ABŞ barədə də demək olar. Ermənistanda isə hesab edirlər ki, hadisələrin məhz bu səpkidə inkişafı Qarabağ üzərində İrəvanın nəzarəti itirməsilə yekunlaşacaq. Erməni politoloq Qarik Keryan bildirir ki, indilikdə qeydə alınan vəziyyət Azərbaycanın Qarabağ məsələsində məqsədinə daha sürətlə yaxnlaşdığını göstərir. Onun sözlərinə görə, Rusiya və ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır və elə bu da onların Qarabağ münaqişəsinin həllini hansı formada görmək niyyətlərini açıq şəkildə meydana qoyur: "O da mühüm faktordur ki, ABŞ və Rusiyanın Qarabağ münaqişəsinin həllinə yanaşması, demək olar, üst-üstə düşür. Rusiyanın ardınca, artıq Tramp administrasiyası hazırda bölgədə böyük əhəmiyyətə malik olan Qarabağ münaqişəsinin həllinə diqqət ayırır. ATƏT-in Minsk Qrupu isə Rusiya ilə ABŞ-ın əməkdaşlıq etdiyi nadir formatlardan biridir. Bu mənada, ABŞ-ın Qarabağ məsələsində artan fəallığı Moskvanı narahat etmir". O qeyd edib ki, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan artıq yaxın vaxtlarda Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünün baş tuta biləcəyinə işarə edib. Erməni politoloqun fikrincə, görüşlərlərin detalları gizli saxlandığına görə, görüşlər barədə yalnız ümumi məlumat əldə edə bilirlər: "Buna görə də, görüşlərin məzmun hissəsini müzakirə etmə imkanım yoxdur. Lakin 2018-ci ildə baş tutan görüşlərlə müqayisədə, görüşlərin hazırda daha intensiv keçirilməsini nəzərə alarsaq, müəyyən etimadın formalaşdığı hiss edilir. Hər iki tərəf müzakirə aparır və məsələni irəli çəkmək üçün səylər göstərir. Görüşlərin intensivliyində müsbət irəliləyiş var".

Keryan onu da vurğulayıb ki, ABŞ-ın münaqişə üzrə maraqları olmasaydı, Minsk Qrupunun həmsədr ölkələrindən biri olmazdı: "Digər həmsədr ölkələr kimi, Birləşmiş Ştatlar da vaxtaşırı bu məsələdə öz töhfəsini verir. İndiki məqamda yüksək səviyyəli görüşün ABŞ-da keçirilməsi çox əhəmiyyətlidir. Bu, ölkə rəhbərləri və xarici işlər nazirləri səviyyəsində uzun müddətdir ABŞ-da görüş keçirilmədiyi baxımından da əhəmiyyətlidir. Tramp administrasiyası hazırda bölgədə böyük əhəmiyyətə malik olan Qarabağ münaqişəsinin həllinə diqqət ayırır. Nəhayət sırf nizamlanma prosesi baxımından yanaşsaq, prosesin hər hansı həmsədr tərəfindən manipulyasiya edilməməsi vacibdir. İstənilən manipulyasiya müxtəlif xarakterli risqlərə gətirib çıxara bilər. Belə olan halda tarazlaşdırılmış siyasət və bütün həmsədr ölkələrin cəlb edilməsi kifayət qədər vacibdir".

Qeyd edək ki, hələ bu ilin aprel ayında Moskvada Rusiya xarici işlər naziri və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin müşayiəti ilə keçirilən görüşündən bir neçə gün sonra Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Vaşinqton tərəfindən növbəti görüşün ABŞ-da təşkil edilməsinin təklif edildiyini açıqlayıb. Artıq İrəvan da faktı təsdiq edib. Bu fonda ABŞ rəsmi Vaşinqtonun sülh yolu ilə nizamlanma üzrə məsuliyyətini davam etdirəcəyini vurğulayıb. Erməni ekspert Kiro Manoyan isə bu durumda iddia edir ki, Vaşinqton tezliklə Qarabağ məsələsində güzəştə getmək üçün Ermənistana təzyiq etməyə başlayacaq. O hesab edir ki, tezliklə ABŞ tərəfindən İrəvandan Dağlıq Qarabağ məsələsində güzəşt edilməsi tələb olunacaq: "Bu, Ermənistanın həmin təzyiqlərə yer verəcəyi anlamına gəlmir, amma təzyiqlər olacaq". Hesab edilir ki, ABŞ və Rusiya Ermənistana Qarabağ məsələsində real təzyiqlər göstərsə, işğalçı ölkə münaqişənin dinc müstəvidə çözümü üçün artıq real addımlar atar. Əks təqdirdə, yuxarıda qeyd olunduğu kimi, məsələnin güc yolu lə həlli qaçılmaz olacaq və bunu işğalçı Ermənistanda da istisna etmirlər. Ermənistanın Respublika Partiyasının sədr müavini Armen Aşotyan bununla bağlı bildirir ki, Nikol Paşinyan Qarabağ məsələsində ciddi təzyiq altındadır: "Böyük dövlətlərin təzyiqləri artır. Paşinyan ya sülh, ya da hərb yolu ilə münaqişəyə dair tezliklə müəyyən addımlar atmalı olacaq. Onun Azərbaycanın istəyi ilə razılaşması elə də asan deyil. Belə olan halda savaş ehtimalı artır və burada Ermənistanın qalib olacağını demək mümkün deyil. Bu səbəbdən Paşinyan mümkün döyüşlərin günahlarını əvvəlcədən Qarabağdakı rejimin üzərinə atmağa çalışır". O qeyd edib ki, bir vaxtlar da Saakaşvili müharibənin günahını Rusiyanın üzərinə atıb: "Gürcüstanın eks-prezidenti Mixeil Saakaşvili 2008-ci ildə müharibənin günahını Rusiya üzərinə ataraq, Abxaziya və Cənubi Osetiyanı itirib. 2019-cu ildə isə Nikol Paşinyan mümkün döyüşlərin günahlarını əvvəlcədən Qarabağdakı rejimin üzərinə atır".

Məhz belə bir vaxtda Azərbaycan ordusunun mart ayından etibarən 3-cü dəfə hərbi təlimlər keçirməsi düşmən ölkədə birmənalı qarşılanmayaraq rezonans doğurub. Ordumuzun təlimlərinə xüsusi diqqət yetirən erməni mətbuatı bunu böyük dövlətlərin İrəvana artan Qarabağ təzyiqləri, eyni zamanda Ermənistandakı ictimai narahatlıqla üst-üstə düşdüyünü yazır. Bu fonda Azərbaycan ordusunun mayın 20-dən 24-dək keçirilən təlimlərinə toxunan erməni mətbuatı ordumuzun yüksək döyüş hazırlığı nümayiş etdirdiyi bu təlimlərin növbəti Aprel savaşına hazırlıq olub-olmaması və Ermənistanın bu vəziyyətdə nə etməli olduğu sualına cavab tapmağa çalışıb. Hərbi ekspert Taron Ovannisyan 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopterimizin təlimə cəlb olunduğunu sadalayaraq, son iki ayda Azərbaycan ordusunun 3-cü təliminin təsadüf olmadığını və "narahatlığa əsas" yaratdığını bildirib. Ekspert bildirib ki, rəsmi Bakı təlimlərin "əks-hücum" xarakterli olduğunu bəyan etməklə əslində əsl mövqeyini gizlətməyə çalışır. Çünki təlimlər müdafiə xarakterli deyil, əsl hücum məşqləridir. Bununla da Ovannisyan, əslində, Azərbaycan ordusunun hərbi təlimlərinin miqyas və xarakterinin Ermənistan üçün nə dərəcədə vahiməli olduğunu etiraf edib: "İstənilən halda, Azərbaycanın hərbi siyasi rəhbərliyi hücum əməliyyatını əsas tərkib hissəsi hesab edir. Buna görə də, Azərbaycanda keçirilən təlimləri Ermənistan tərəfi ayrıntılı şəkildə izləməklə təhlil etməlidir". Erməni ekspert qeyd edib ki, ilk təlim martda, digəri isə mayda Türkiyə ilə birlikdə keçirilib və hazırda mayın 20-24-ü aralığında Azərbaycanın növbəti təlimləri davam edir: "Bildirilir ki, təlimlərin əsas məqsədi düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunların hücuma keçməsindən ibarətdir. Ssenariyə gəldikdə isə, bu mövzu əvvəlki təlimlərdən bir o qədər də fərqlənmir. Əks hücum ssenariləri son illər ərzində dəfələrlə keçirilib. İstənilən halda, Azərbaycanın hərbi siyasi rəhbərliyi hücum əməliyyatını təlimlərin əsas tərkib hissəsi hesab edir. Buna görə də, Azərbaycanda keçirilən təlimləri Ermənistan tərəfi ayrıntılı şəkildə izləməklə təhlil etməlidir. Bu təhlil Azərbaycan tərəfinin hansı taktikanı tətbiq etdiyini, hansı ssenariləri nəzərdən keçirdiyini, qoşunların irəliləməsi üçün hansı alqoritmlərdən istifadə etdiyini anlamağa imkan verir. Bütün bunlar gələcəkdə konkret fəaliyyətlərin planlaşdırılması zamanı kömək edə biləcək çox vacib incəliklərdir. Eyni zamanda o da nəzərə alınmalıdır ki, təlimlər Ermənistanın Qarabağ məsələsində ciddi beynəlxalq təzyiqlərlə üzləşdiyi bir vaxtda baş verir. Bütün bunların üst-üstə düşməsi isə bizim üçün müsbət heç nə vəd etmir".

Ümumiyyətlə, Ermənistanda hesab edirlər ki, Azərbaycan ordusunun intensiv şəkildə keçirilən irimiqyaslı hərbi təlimləri erməni tərəfinə təzyiq göstərməyə hesablanıb. Digər tərəfdən düşmən tərəf ona xüsusi diqqət yetirir ki, təlimlərdə qoşunların əsas etibarı ilə hücum əməliyyatına hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi kimi hədəflərin qarşıya qoyulması Azərbaycanın savaşa hazırlığının göstəricisidir. Eyni zamanda təlimlərdə və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi də birmənalı qarşılanmır. Hesab olunur ki, bununla Azərbaycan məsələni güc yolu ilə həll etməyə tam hazır olduğunu və müasir silahlarla silahlanmış ordusunun qələbə çalacağına dair Ermənistana dəqiq mesajlar verir. Belə durumda beynəlxalq şəraitin də Azərbaycanın lehinə olması Ermənistanın artıq çıxılmaz vəziyyətdə olduğunu göstərir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanda baş verən son olaylar bu ölkədə əvvəlcədən də mövcud olan qarabağlı-ermənistanlı qarşıdurmasının getdikcə daha da dərinləşdiyini üzə çıxarır. Elə sabiq Robert Köçəryanın azadlığa çıxmasından sonra baş nazir Nikol Paşinyanla separatçı rejimin rəhbəri Bako Saakyan arasında olan gərginliyin artması da bunun daha bir təzahürü sayılır.**

# Qarabağlı-ermənistanlı qarşıdurması şiddətlənməyə başladı, "Daşnaksütyun" da Paşinyanın qarşısına dikildi...

Görünən budur ki, indiki şəraitdə Bako Saakyanın Robert Köçəryanla birləşməsi Paşinyan hakimiyyətini çox narahat edir. Çünki Paşinyan bu gedişlə qarabağlıların mövqeyinin daha da gücləncəyindən əndişələnir.

Xatırladaq ki, separatçılarla Paşinyan arasında uzun müddətdir qarşıdurma gedir. Bu qarşıdurmada təkcə Köçəryan iştirak etmir, həmçinin "Daşnaksütyun" Partiyası və ölkənin xaricində olan lobbi qüvvələri də separatçıların Paşinyana qarşı revanşını gücləndirir. Belə vəziyyətdə Ermənistanda klanlararası çəkişmə daha da şiddətlənir. Rus politoloq Stanislav Tarasov da hadisələrin məhz bu səpkidə inkişaf edəcəyini proqnozlaşdırır. Ekspert vurğulayır ki, indiki durumda Paşinyan dalana dirənir. Onun sözlərinə görə, Ermənistanda məhkəmə sahəsində böhran qarabağlı-ermənistanlı qarşıdurmasını şiddətləndirən əsas faktorlardan birinə çevrilib: "İstənilən inqilabın öz janrı, epizodları, xarici düşmən, xəyanətkarlıq və digər əlamətləri var. Yəni ictimai problemləri həll etmək yox, öz təsirini saxlamaq istəyən hakimiyyətlər bu cür davranırlar. Ermənistan baş naziri Nikol Paşinyan 1 ildir ki, hakimiyyətdədir. Məhkəmə sistemi hakimiyyətin ən vacib qollarından biridir və bu sahədə islahatlar ilk dövrlərdən aparılmalı idi. Lakin o bunu etmədi. Köhnə sistem fəaliyyət göstərməyə davam edir. Müxtəlif hadisələr baş verdi. Məhkəmələr fəaliyyətini hələ də davam etdirirdi. Lakin Paşinyanın heç bir sualı yaranmırdı. Elə ki məhkəmə Köçəryanı azad etdi, Paşinyan məhkəmə sahəsindəki böhran barədə məlumat verdi". Ekspert bu vəziyyəti qarabağlılar klanının Ermənistanda təsir dairəsini saxlamasının təzahürü kimi qiymətləndirib. Tarasov bildirir ki, separatçıların mövqeyini zəiflətmək üçün Paşinyanın gedişləri də qarabağlıların xoşuna gəlməyib: "Paşinyan öz şəxsi əmri ilə "Qarabağ müdafiə nazirini" tutduğu vəzifədən azad etdikdə bu, qondarma qurumun daxili işlərinə müdaxilə edilməsi idi. Digər tərəfdən Paşinyan qeyd edir ki, Qarabağ ayrıca ərazidir. Bunlar artıq bu cəmiyyətdə qüvvədə olmayan ikili standartlardır. Bu, siyasətin deyil, publisistikanın krizisi, janrın böhranıdır. O, dalana dirənib, lakin bundan çıxmaq lazımdır. Ona görə ki, mövcud dəstəyin səviyyəsi əvvəlki kimi deyil. Bu dəfə insanlar onun çağırışına cavab verərək küçələrə çıxdılar. Lakin keçən ilin yazında baş verən hərəkətlilik, say çoxluğu baş vermədi. Bundan əlavə bir çox orqanlar, o cümlədən prezident qanunun tələblərinə əməl etməyə çağırdı. Paşinyan yavaş-yavaş təcrid içərisinə düşür və "Qarabağ klanı" da bundan istifadə etməyə çalışır".

Ekspert vurğulayır ki, "Daşnaksütyun" Partiyasının da indiki vaxtda "Qarabağ klanı"nın yanında yer alması Paşinyan üçün ciddi çətinliklər yaradır. Yeri gəlmişkən qeyd edək ki, "Daşnaksütyun" Partiyası ölkədə baş verənlərlə bağlı mayın 23-də mitinq planlaşdırır. Partiyanın ali orqanının təmsilçisi İşxan Saqatelyan ölkədə yaşananlara seyrçi qalmaycaqlarını bildirib. İndilikdə görünən budur ki, "Daşnaksütyun" Partiyası "Qarabağ klanı"ilə birləşmək qərarına gəlib. Bunlarla bağlı "1-in.am" portalı yazır: "Daşnaksütyun" Partiyası mitinq təşkil edəcəyini elan edib. Yəqin ki, parlamentdən kənarda qalan "Daşnaksütyun" Partiyasının siyasi yanaşmalarında artıq çoxdan, yeni şəraitdə Robert Köçəryanın siyasi fəaliyyətinə münasibətdə necə mövqe tutacağı istisna olmaqla, maraqlı bir şey yoxdur. Bu məsələ iki səbəbdən xüsusilə maraq doğurdu.

Birincisi odur ki, "Daşnaksütyun" Partiyası elə bu günlərdə Qarabağda iştirakçılarının mütləq əksəriyyəti Köçəryanın qeyri-formal komandasının və ya bu qanadın təmsilçiləri olan forum təşkil etdi. Bundan əlavə, tərkiblə birlikdə forumda edilən çıxışların əksəriyyətində siyasi vurğular bu yöndə idi. Bu tədbir siyasi kuluarlarda 9 may bayramı ətrafında baş verən hadisələr kontekstində xüsusilə maraqlı oldu. Bu hadisələrin inkişafı bir tərəfdən Robert Köçəryanın azad olunmasına, digər tərəfdən də, bununla birlikdə, Nikol Paşinyanın məlum çıxışında əks olunduğu kimi, ədalət məhkəməsinin yaradılmasına keçidin və inqilabın yeni mərhələsinin sürətlənməsinə gətirib çıxardı. "Daşnaksütyun" Partiyasının siyasi mövqeyilə bağlı hələlik yeganə maraq doğuran intriqanı önə çıxaran ikinci səbəbsə Robert Köçəryanın "Reuters" agentliyinə verdiyi müsahibədir.

Həmin müsahibəsində Köçəryan, əmin etdiyi kimi, yeni hakimiyyətə əlcək atacaq yeni və güclü müxalifət qüvvəsinin formalaşdırılmasından söz açır. Ölkənin ikinci prezidenti bəyan edib ki, onun özü də bu qüvvəyə birləşəcək. Bu, həmin qüvvənin onun özü tərəfindən yaradılmasının elan edilməsidir, sadəcə, hələlik format məlum deyil. Çünki böyük hesabla, yalnız Robert Köçəryanın özü tərəfindən yaradılan qüvvə onun dəstəyini, özü də statusundan asılı olmayaraq, onun birbaşa iştirak etməsilə almaq istəyər. Doğrusu, siyasi planda Köçəryan amili ictimai kapitalın toplanması baxımından elə də uduşlu deyil. Ona görə də, yalnız onun özü tərəfindən yaradılan bir qüvvə ikinci prezidenti birbaşa dəstəkçi və ya iştirakçı amil kimi qəbul edər.



Buradan da ortaya belə bir sual çıxır: Robert Köçəryan daha öncül siyasi statusda olacaqsa, "Daşnaksütyun" Partiyası harada olacaq? "Daşnaksütyun" Partiyası bu qüvvənin özəyi olacaqmı? Yoxsa yalnız bir hissəsi olacaq? Əks halda sual yaranır: bu qüvvəyə münasibətdə "Daşnaksütyun" Partiyası hansı mövqeni tutacaq? Çünki, böyük ehtimalla, ikinci prezident özünün bu siyasi proqramını həyata keçirdiyi təqdirdə "ultimatum" siyasəti aparacaq və məsələni belə qoyacaq: mənimləsən, yoxsa mənə qarşısan? Beləliklə, "Daşnaksütyun" Partiyasının qarşısında da bu sual duracaq: Köçəryanlasan, yoxsa Köçəryana qarşısan? Görünən budur ki, partiya Köçəryanı seçib və bu da Paşinyanı qarşıdakı günlərdə daha çətin günlər gözlədiyini deməyə əsas verir".

***Nahid SALAYEV***

## İranın Prezident Administrasiyası ABŞ-la müzakirələrin mənasız olduğunu bildirir

**ABŞ-ın İran xalqına təzyiq göstərdikcə və öhdəlikləri yerinə yetirmədikcə, bu ölkə ilə müzakirələrin mənası yoxdur. "Trend"in məlumatına görə, bunu İran Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi Nazirlər Kabinetinin iclasından sonra jurnalistlərə açıqlamasında deyib.**

M.Vaezinin sözlərinə görə, son günlər, əsasən 8 maydan sonra müxtəlif ölkələrin Hərtərəfli Birgə Fəaliyyət Planının qorunması və regionda qarşıdurmanın olmamasının tərəfdarı olduğu müşahidə olunur: "Bu ölkələr Hərtərəfli Birgə Fəaliyyət Planının əhəmiyyətini nəzərə alaraq, gedişatın İranın razılığını qazanmaq istiqamətində olmasını istəyirlər. Amma bu səylər İranla ABŞ arasında müzakirənin aparılması demək deyil".

## Tramp İrlandiyada öz oğlanlarının hotelində qalacaq

**ABŞ Prezidenti Donald Tramp İrlandiyaya səfəri zamanı öz oğullarına məxsus hoteldə qalacaq. "Trend"in məlumatına görə, D.Trampın səfəri iyunun 5-də baş tutacaq.**

İkigünlük səfəri müddətində o, "Trump International Golf Links and Hotel" kompleksində qalacaq.

Qeyd edək ki, 218 otaqdan ibarət olan hotel və qolf kompleksini Donald Tramp 2014-cü 15 milyon dollara əldə etmişdi. Prezident seçildikdən sonra isə kompleks onun oğulları Erik və Donaldın mülkiyyətinə keçib.

**"Unibank"la bağlı yaşadığım problemlər barədə son günlər ard-arda qəzetimizdə və saytımızda yer alan yazılarda ətraflı məlumat verilib. Həmin yazılarda 2013-cü ilin avqustunda bankdan manatla bir, 2014-cü ilin iyulunda dollarla ikinci kredit götürməyim, 2014-cü ilin dekabrında banka müraciət edərək kreditlərimin birləşdirilməsini xahiş etməyim və bu zaman bankın mənim manatla götürdüyüm kreditləri dollara çevirərək bunu bankın hazırkı siyasəti ilə izah etməsi, nəticədə iki ay sonra baş verən devalvasiya üzündən borcumun xeyli artması barədə ətraflı məlumat verilib.**



# "Unibank"ın yeni kredit fırıldaqlarının yerindəcə şahidi oldum...

*"Dollarla götürdüyüm kreditin qalan hissəsini ötən ilin avqustunda israrla manata çevirərək yeni kredit kimi sənədləşdiriblər..."*

Bildirilib ki, kreditlərim manatla olduğu halda, sırf bankın mənafeyi bunu tələb edir deyə müraciətimi fürsət bilib onu dollara çevirmələri üzündən borcun artan hissəsini ödəməkdən imtina etdim və bunun da nəticəsində bank məni məhkəməyə verdi. Lakin məhkəmə də bankın xeyrinə qərar çıxardığından, ödənişləri etməkdən başqa əlacım qalmadı. Bu hal 2018-ci il avqustun əvvəllərinə kimi davam etdi. Həmin ilin ilk avqust günlərində "Unibank"da birdənbirə mənə "yaxşılıq" etmək həvəsi oyandı və bankın işçiləri hər gün azı 3-5 dəfə mənə telefon açaraq, israrla borcumu manata çevirmək üçün banka gəlməyimi təklif etməyə başladılar. Təbii ki, "Unibank"dan "alacağını almış" biri kimi onların heç bir təklifi məni maraqlandırmırdı, lakin bankın milçəksayağı "yapışqan" işçiləri əl çəkmirdi. Bu hal bir həftədən çox davam etdi və israrlı zənglərə rəğmən, hər dəfə verdikləri təkilfdən imtina etdim. Bank əməkdaşları isə hər zənglərində məni inandırmağa çalışırdılar ki, guya məni düşünürlər, gəlib borcumu manata çevirsəm üzərimdən məhkəmə qərarı qalxacaq, hətta "özümü yaxşı aparsam", bank mənə yeni kredit də verə bilər. Təbii ki, mən bütün bunlara inanmırdım, lakin bu israrlı zənglərin arxasında bir qapalı məqsədin olduğu gün kimi aydın idi. Uzun tərəddüddən sonra avqustun 13-də banka getməyə razılaşdım və Nərimanov filialında məni qəbul edib, dollarla kreditimi manata çevirdilər. Görünür, bu da "Unibank"ın həmin məbləği gələcəkdə veriləcək kompensasiyadan kənarda tutmaq üçün növbəti fırıldağı imiş və təəssüf ki, mən bunu gec anladım. Deyə bilərsiz ki, bank o zaman Prezidentin dollar kreditlərilə bağlı belə bir humanist addım atacağını bilmirdi. Mənsə düşünürəm ki, bank bu addımı elə o zamandan proqnoz edib. Xatırlayırsınızsa, devalvasiyanın baş verdiyi ilk dönəmlərdə az qala bankların girovunda olan bütün ölkə əhalisi ümid dolu nəzərlərini Prezidentə dikmişdi. Banklarda dollarla krediti olan hər kəs səhəri Prezidentdən müjdə ümidi ilə açırdı və elə həmin dönəmdə məsələ parlament tribunasına da daşındı. Daha sonra bununla bağlı son sözü Konstitusiya Məhkəməsinin deyəcəyi bildirildi və nəzərlər həmin məhkəməyə yönəldi. Lakin 2015-ci ilin may ayında Konstitusiya Məhkəməsinin verdiyi son qərar bu ümidləri doğrultmadı və borclu əhali yenidən ümidini Prezidentə bağladı. Bu gözləntinin nə qədər çəkdiyi önəmli deyil. Önəmli olan odur ki, xalq Prezidentin gözəl bir gündə bu addımı atacağına inanırdı və istisna deyil ki, elə bank da bu gözləntidə idi. Yalnız mən bankın bu uzaqgörən planının fərqində olmamağıma təəssüf edirəm. Bilirsizmi bunun nə zaman fərqinə vardım? Deyim, bilin...




Kompensasiya verilişindən sonra da bankın məndən aylıq ödəniş tələb etməsi, hətta alacağım kompensasiya məbləği əlimə gəlib çatmadan ondan bu vaxta qədər ödədiyim məbləğdə iki aylıq ödəniş və üzərinə hesabladıqları heç də az olmayan cərimə məbləği ilə bağlı narazılığım əsasında bankın PR meneceri Sülhiyyə Şirinova mayın 20-də məni baş ofislərinə danışığa dəvət etdi. Söhbətdə bankın şikayətlər üzrə şöbəsinin müdiri Yusif adlı şəxs də iştirak edirdi. Onların müzakirə əsnasında dönə-dönə mənə "sizin dollar kreditiniz bağlanıb, kompensasiyanı da o kreditə görə (!) almısız, ödəniş tələbi isə ötən ilin avqustunda götürdüyünüz yeni kreditlə bağlıdır" deməsi məni sanki yuxudan ayıltdı. Anladım ki, bu oyunu mənə elə o zaman israrla çağırdıqları dönəmdə qurublar. Əslində isə söhbət elə həmin kreditdən gedirdi və bank bunu bilməyə bilməzdi. Fikir verin, vaxtilə müraciətimi fürsət bilib manat kreditini dollara çevirməklə "qırx arşın quyunun dibinə" atdıqları adamı az qala gün boyu min dillə yenidən borcunu manata çevirməyə ikna etməyə çalışırlar, buna nail olduqda isə sevincək həmin məbləği ən yüksək məzənnə ilə manata çevirirlər, beləliklə də borcun həmin hissəsinin restrukturizasiyadan kənarda qalmasına nail olurlar. Necə fırıldaqdı? Yəqin heç şeytanın da ağlına gəlməzdi... Demək, bank işçilərinin ötən il mənə və iş yoldaşlarıma, qohumlarıma israrla etdikləri zənglərin səbəbi bu imiş ki, 5 il əvvəl dollarla hesablanmış və aylıq ödədiyim kreditin qalmış hissəsini yenidən manata çevirsinlər və nəticədə cənab Prezidentin məlum fərmanının icrasını yarımçıq həyata keçirərək, Prezident fərmanı ilə dövlətdən aldığım kompensasiyanın da yarısından çoxunu əlimdən alsınlar. Heç şübhə yoxdu ki, "Unibank" ötən ilin avqust ayında mənim başıma açdığı oyunu başqa müştərilərin də başına açaraq onları tora salıb. Görünür ki, bank özünə sərf edən bütün maliyyə dəyişmələrini öncədən görərək kreditləri istədiyi vaxt xarici valyutaya, istədiyi vaxt da milli valyutaya çevirir. Ortada da, təbii ki, bütün hallarda irəli düşən özü olur. Beləliklə görünən o ki, cənab Prezidentin geniş sosial siyasətlə hər bir vətəndaşın məmnunluğuna hesablanmış kurs apardığı bir vaxtda "Unibank" rəhbərliyi tam fərqli məzmunlu fəaliyyətlə ölkədə vətəndaş məmnunluğu kimi vacib bir təzahürün altını qazmaqla məşğul olur...

Bütün bu baş verənləri götür-qoy etdikdə "Unibank"ın Prezident fərmanına qədər bir çox vətəndaşların xarici valyutada kreditlərini yenidən milli valyutaya çevirdiyinə və beləliklə də kompensasiya almaq şansından kənarda qoyub özləri üçün "zərərsizləşdirdiklərinə" dair ciddi şübhələr yaranır. Odur ki, "Unibank"ın xarici valyutaya çevirdiyi kreditlərin sahibləri ilə bağlı ayrıca araşdırma aparmaq da çox maraqlı olardı və yəqin ki, belə də ediləcək. Çünki bu həm vətəndaşları incitməkdir, həm əlavə pul qoparmaqdı, həm də çox əhəmiyyətli Prezident fərmanını sabotaj etməkdir. Bu yazı vasitəsilə həm də həmin sabotajın qurbanına çevrilmiş şəxslərə müraciət edirəm: həmin dövrdə mənim kimi sizlər də bu tip fırıldağın güdazına getmisinizsə susmayın, bizə müraciət edin. Redaksiya olaraq bu məsələnin üzərinə getməkdə qərarlıyıq və araşdırmalarımız davam edəcək.

Sonda onu da deyək ki, aparılan təhlil, araşdırma və mülahizələrlə bağlı "Unibank" rəhbərliyinin, hər hansı həcmdə olmasından asılı olmayaraq, reaksiyasını da dərc edə bilərik. Təki cəmiyyətimiz həqiqəti bilsin və "Unibank"ın rəhbərliyi şəffaf və hağlı olduqlarını sübut etsin.

***Samirə SƏFƏROVA***

**Son** illər Azərbaycanda bir sıra sahələrdə sistemli islahatlar aparılır. Belə ki, idarəetmə, sosial, iqtisadi və digər sahələrdə köklü islahatları müşahidə edirik. Sözügedən islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edir.

# Azərbaycanda islahatların digər MDB ölkələrindəki islahatlardan forma və prinsip fərqləri...



*"Ölkədə aparılan islahatlarda dövlət dəstəyi böyükdür"*

## *Fikrət Yusifov: "Azərbaycanda islahatların sürəti MDB ölkələri ilə müqayisədə daha yüksəkdir"*

Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş qeydə alınıb.

Bütün bunların nəticəsidir ki, aparılan islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, sözügedən hesabatda Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək, dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, ölkəmiz dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz Azərbaycanda formalaşıb. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında öncül yerlərdən birini tutur. Bir sıra reytinq agentlikləri Azərbaycanın potensial imkanlarını yüksək qiymətləndirirlər.

Bütün bunların fonunda, Azərbaycanda aparılan islahatların digər MDB ölkələrindəki islahatlardan forma və prinsip fərqləri nədən ibarətdir?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifov bunu bir neçə aspektdən yanaşdı:** "Bu islahatların fərqli cəhəti ondan ibarətdir ki, Azərbaycan neft ölkəsidir. Ən azından, enerji ehtiyatları olmayan ölkələrdən fərqli bir islahat aparırıq. Yəni iqtisadiyyatın qeyri-neft sektorunun daha sürətli inkişafında qərarlıyıq və bu istiqamətdə ciddi addımlar atırıq. Bir fərqli cəhət bundan ibarətdir. Digər fərqli cəhət odur ki, Azərbaycanda islahatların sürəti MDB ölkələri ilə müqayisədə daha yüksəkdir. Dünya Bankının son hesabatında iqtisadi islahatların aparılma sürətinə görə 10 ölkədən biri Azərbaycandır. MDB məkanında biz birinci yerdəyik. Başqa bir tərəfdən, Azərbaycanda aparılan islahatlarda dövlət dəstəyi böyükdür. İslahatlar bilavasitə ölkə başçısının diqqətindədir. Hesab edirəm ki, bu çox önəmli məqamdır. Azərbaycanda aparılan islahatların dinamikliyi daha cəlbedicidir. Bu da sözügedən istiqamətdə işlərin uğurlu getməsini və yaxşı nəticələrin əldə edilməsini şərtləndirir. Bundan başqa, Azərbaycanda islahatlar bir neçə istiqamət üzrə aparılır. Hesab edirəm ki, bizim son bir-iki ildə büdcə gəlirlərimizin, xərclərimizin artımının nəinki MDB məkanında, heç dünyada belə analoqu yoxdur.

Nadir rast gəlinən haldır ki, hansısa ölkənin büdcəsinin xərcləri bir ildə 50 faiz artsın. Məhz Azərbaycan bir il ərzində buna nail oldu".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycan Respublikası Vergilər Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatına görə, Vergilər Nazirliyindən bir sıra Ərazi Vergilər İdarələrinin 2015-2018-ci illəri əhatə edən dövr üzrə fəaliyyətlərinin yoxlanılması zamanı aşkar edilmiş qanun pozuntularına dair Baş Prokurorluğa daxil olmuş materiallar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılmışdır.**

# 2 saylı Ərazi Vergilər Departamentinin müfəttişi Mahir Əbdürrəhimov 577 min manat mənimsəyib




## *Ağdam şöbəsinin direktoru Valeh Qasımov isə...*

Aparılmış araşdırmalarla 2 saylı Ərazi Vergilər Departamentinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Mahir Əbdürrəhimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Xızı və Siyəzən rayonları üzrə Maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarından tam və ya qismən olmaqla, ümumilikdə 511 min manat azaldaraq, həmin məbləğləri ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd etməklə sonunculardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan, faktla bağlı Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, Ağdam rayon Vergilər Şöbəsinin direktoru Valeh Qasımovun eyni qaydada rayon Maliyyə idarəsindən daxil olmuş ödəniş sənədlərini (qəbzləri) saxtalaşdıraraq faktiki olaraq ödəniş olmadığı halda ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə ümumilikdə 412 min manat vəsait qeyd etməklə onlardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan, material üzrə Cinayət Məcəlləsinin 179.3.2 və 308.2-ci maddələri ilə cinayət işi başlanıb.

Aparılmış araşdırmalarla həmçinin, 5 saylı Ərazi Vergilər İdarəsinin operativ vergi nəzarət şöbəsinin dövlət vergi müfəttişi Eldəniz Əzizov və həmin idarənin Səyyar vergi yoxlamaları şöbəsinin böyük dövlət vergi müfəttişi Elnur Mənsimovun eyni qaydada müvafiq maliyyə idarələrindən daxil olmuş ödəniş sənədlərinin (qəbzlərin) işlənilməsi zamanı 38 min manat vəsaiti faktiki ödəniş təyinatından yayındırmaqla ayrı-ayrı vergi ödəyicilərindən nağd şəkildə alınıb və büdcəyə ödənilməmiş vəsait əvəzinə onların şəxsi hesab vərəqələrinə vergi ödənişi kimi qeydiyyatını aparmaqla vergi ödəyicilərindən vergi ödənişi kimi nağd şəkildə alınmış həmin məbləği mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3, 179.2.4 və 308.1-ci maddələri ilə cinayət işi başlanıb.

Göstərilənlərlə yanaşı, 13 saylı Ərazi Vergilər İdarəsinin Kiçik sahibkarlıqla iş şöbəsinin vergi öhdəliklərinin icrasına nəzarət bölməsinin baş dövlət vergi müfəttişi Ziya Paşayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2017-2018-ci illər ərzində Qax rayon Maliyyə İdarəsindən təhvil aldığı vergi və rüsumlarla bağlı 47 min manat dəyərində ödəniş qəbzlərini skan edərək ora əvvəldən tanıdığı bəzi vergi ödəyicilərinin sadələşdirilmiş vergi kodu, ödəyicinin adı, VÖEN və vergi məbləği haqda yenidən qeydiyyat apararaq rəsmi sənədi saxtalaşdırmasına əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 308.2 və 313-cü maddələri ilə cinayət işi başlanıb.

Vergilər Nazirliyi üzrə əmrlərlə xidməti fəaliyyətlərinin icrası zamanı yol verdikləri qanunazidd əməllərə görə müvafiq Ərazi Vergilər İdarələrinin 4 əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib, 4 əməkdaş isə müvəqqəti olaraq tutduqları vəzifədən kənar edilib.

Hazırda cinayət işləri üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Birgə məlumatda o da qeyd olunur ki. vergi sahəsində yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkar edilmiş korrupsiya hüquqpozmalarına qarşı bundan sonra da Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən ciddi tədbirlərin görülməsi davam etdiriləcək.**

***Baki-xeber.com***

# Orta məktəb təhsili sistemini hədəfə alan qara piarın yeni dalğası - yarımçıq məlumatları kimlər yayır?

**Demək olar ki, hər gün olmasa da, günaşırı müxtəlif saytlarda, xüsusən də sosial şəbəkələrdə Azərbaycanın orta ümumtəhsil məktəbləri və məktəblilər barədə heç də ürək açmayan məlumatlar yayılır. Son zamanlara qədər şagirdlərin intihar məsələləri şişirdilmiş formada təqdim edilirdisə, indi də naməlum məktəblilərin intim videolarının mövcud olduğu haqqında xəbərlər sosial şəbəkələri zəbt edib.**



***Fatimə Hacıbəyli:** "Bəziləri Azərbaycanı istəməyən qara qüvvələrin bizim məktəblərlə və məktəblilərlə bağlı həyata keçirmək istədikləri çirkin işlərə bu yolla dəstək olurlar"*

***Nərgiz Allahverdiyeva:** "Çox zaman həqiqəti əks etdirməyən belə xəbərlər məqsədli şəkildə yayılır"*

Səhər-səhər gündəmlə tanış olmaq üçün bəzi saytlara və sosial şəbəkələrə daxil olmaq kifayət edir ki, bu cür xəbərlərlə tanış olasan.

Sosial şəbəkələrdə yayılan məlumata görə, iki yeniyetmə məktəbli qızın intim görüntüləri mövcuddur. Xəbəri yayanların bildirdiyinə görə, guya bu videoda yer alan görüntülər o qədər qeyri-etik, açıq-saçıqdır ki, onu sosial şəbəkələrə qoymayıblar. Video haqqında bəhs edilən məlumatda deyilir ki, naməlum məktəbin naməlum iki qız şagirdi hər gün məktəbin yaxınlığındakı həyətlərdən birinə gəlir və burada intim münasibətdə olurlar (?). Ümumiyyətlə, belə bir hadisənin baş verib-vermədiyi məlum deyil, heç o videonun mövcudluğu da inandırıcı görünmür. Bu, sadəcə olaraq, məktəbləri və məktəbliləri qaralamaq, şantaj etmək, kimlərisə təşviş içində saxlamağa xidmət edir.

Azərbaycan məktəblərini və məktəblilərini hansı qüvvələr hədəfə alır? Nə üçün son dövrlər orta məktəblər və şagirdlər haqqında xoşagəlməz informasiyalar sosial medianın gündəmindən düşmür?

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, son dövrlər məktəblərin və məktəblilərin bu və ya digər formada hədəfə alınması olduqca mənfi haldır.** Azərbaycanda orta ümumtəhsil sistemini gözdən salmağa cəhd edən qüvvələrin olduğunu istisna etməyən F.Hacıbəyli qeyd etdi ki, bəzən bilərəkdən və bilməyərəkdən ayrı-ayrı saytlar, sosial şəbəkə istifadəçiləri də həmin qüvvələrin istəyini həyata keçirirlər. "İki yeniyetmə məktəbli qız haqqında bu cür məlumatın sosial mediada yer almasını normal qəbul etmirəm. Yazırlar ki, adı, ünvanı məlum olmayan məktəbin iki qız şagirdi "intim əlaqəyə" giriblər. Bu cür xəbəri tirajlamaq, sensasiya naminə, oxucu cəlb etmək üçün yalandan istifadə etmək düzgün deyil. Bu, Azərbaycan məktəblərinin və məktəblilərinin gözdən salınmasına, bütövlükdə, orta ümumtəhsil sisteminin şübhə altına alınmasına yönəlik məsələdir. Guya ki, həmin videogörüntü hansısa saytın redaksiyasındadır və onlar bunu qeyri-etik olduğu üçün yaymırlar. Ümumiyyətlə, bəlkə də heç elə bir hadisə baş verməyib və bu barədə ortada video da yoxdur. Sadəcə, bəziləri Azərbaycanı istəməyən qara qüvvələrin bizim məktəblərlə və məktəblilərlə bağlı həyata keçirmək istədikləri çirkin işlərə bu yolla dəstək olurlar. Azərbaycan məktəblisini, yeniyetməsini bu cür təqdim etmək olmaz, bu, ən azından, mənəvi cinayətdir. Hər baş verən hadisəni sensasiyalı xəbərə çevirmək, onu tirajlamaq, yaymaq olmaz".

F.Hacıbəylinin sözlərinə görə, bu xəbərlərin yayılması düşmən dəyirmanına su tökməyə xidmət edir. Onun dediyinə görə, bu kimi neqativ təqdimatlar Ermənistan mediasında da işıqlandırılır və Azərbaycana qarşı istifadə edilir. "Bu cür informasiyalar yaymaqla biz Azərbaycanı anbaan izləyən xarici qüvvələrin əlinə fürsət veririk. Onlar bizim medianı yaxından izləyirlər. Kim təminat verə bilər ki, xarici qüvvələr bu tip xəbərlərdən ölkəmizə, cəmiyyətimizə qarşı istifadə etməyəcəklər. Ermənistan mətbuatında belə xəbərlər dərc edilir, yayılır və Azərbaycandakı "mövcud vəziyyət" kimi təqdim edilir. Nə bilirik, bəlkə sabah Ermənistan mətbuatı yazacaq ki, Azərbaycanda cinsi azlıqların sayı artır. Bəs onda nə olacaq? Sosial media yaydığı hər bir məlumata, xəbərə ehtiyatla yanaşmalıdır. Ona görə ki, bizimlə bağlı hər bir informasiya kənarda şişirdilir. İki qızın "intim əlaqəyə girməsi" məsələsindən də bizə qarşı istifadə edə bilərlər" - deyə F.Hacıbəyli vurğuladı.

**Uşaq və yeniyetmələrlə bağlı bu cür xəbərlərin yayılmasının mənfi hal olduğunu deyən psixoloq Nərgiz Allahverdiyevanın sözlərinə görə də eynicinsli yeniyetmələrin intim videosunun mövcud olmasını gündəmə gətirmək düzgün deyil.** "Hesab edirəm ki, bu kimi məlumatlar məqsədli şəkildə yayılır. Bir çox hallarda bu məlumatların əsası olmur. Bu gün sanki bəzi qüvvələr məktəblərlə, məktəblilərlə ciddi psixoloji mübarizə aparırlar. Gah bəzi məktəblilərin məktəbdə, sinif otaqlarında "əxlaqsızlıq etdiyini" yazırlar, gah da onların məktəbdən kənarda bu işlə məşğul olduqlarını deyirlər. Belə halın baş verməsi reallığı əks etdirmir, çünki məktəblərdə mövcud olan şərait, nəzarət qaydaları buna imkan vermir. Ümumiyyətlə, məktəblilərin bu şəkildə təqdim edilməsi mənfi haldır və bu, o xəbərlərlə tanış olan yeniyetmələrin psixikasına mənfi mənada ciddi təsir göstərir. Bilirsiniz, çox zaman həqiqəti əks etdirməyən belə xəbərlər məqsədli şəkildə yayılır və bu, yeniyetmələri bu cür neqativliklərə yönəltməyə xidmət edir" - deyə N.Allahverdiyeva qeyd etdi.

***İradə SARIYEVA***

# Albaniya tarixinin həqiqi tədqiqatçısı, tarixçi-alim Tofiq Məmmədov bu dünyadan köçdü...

**Tarix həqiqəti sevir, həqiqi mənada təmizliyi, milliliyi, vətənpərvərliyi təcəssüm etdirir. Tarixi milli ruhda, əsl vətəndaşlıq möqeyindən yazmaq həmişə hamıya nəsib olmayıb. Sovetlər birliyinin saxta beynəlmiləlçiliyi içərisində milli ruhun tədricən əriyib getdiyi bir zamanda vətəninə və millətinə sədaqətlə xidmət etmək kimi şərəfli yol tutmuş Tofiq müəllim hər bir məhrumiyyətə dözərək bütün dövrlərdə əsl tarixçi olub.**



İstədiyini yazmaq, obyektiv nəticələr çıxarmaq zəmanəyə uyğun yazmamaqdan çətindir. Tofiq müəllimin mərdliyi, əqidə saflığı onu səhv yol tutmaqdan, ikiüzlülükdən, xalqının tarixini saxtalaşdıraraq ucuz şöhrət qazanmaqdan çəkindirib. Tofiq müəllimin tədqiqatlarında xalqımızın əsl tarixi - Albaniya dövrü öz əksini tapıb. O, yadların istədiyi kimi yazmaq məcburiyyəti qarşısında qoyulsa da, onları öz həqiqətləri ilə razılaşmağa məcbur etmək istəyi üstün gəlib. Özünü erməni saxtakarlarına qarşı mübariz adlandıranlardan fərqli olaraq, Tofiq müəllim özünü təbliğ etmədən, həm də çox cəsarətlə yüzlərlə erməni saxtalaşdırıcılarına qarşı, onların öz yazdıqları dildən istifadə edərək, Azərbaycan və rus dillərində obyektiv tədqiqat əsərləri yazıb.

T.Məmmədov tədqiqatlarında erməni müəlliflərinin Cənubi Qafqaz, xüsusilə Azərbaycan tarixinə dair uydurma, saxta fikirlərinə öz tənqidi münasibətini bildirən ilk müəlliflərdən biridir. O, bir qayda olaraq, naqis elmi fikirləri tənqid edib, öyrənmək məqsədilə ona müraciət edənlərə də həmişə bu cür etməyi məsləhət görüb.

T.Məmmədov erməni mənbələri əsasında yazdığı ilk monoqrafiyası ilə ermənilərı təbliğ etmədən Albaniya və Atropatenanın tarixini tədqiq edib. Vətəninə Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan Albaniya dövlətinin həqiqi tarixini yazmaqla xidmət edib. Tofiq müəllim hay-küyçülükdən, ikibaşlı oyunlardan xoşu gəlmədiyi üçün qısa, konkret həm də tutarlı faktlarla əsərlər yazıb.

Tofiq müəllim öz monoqrafiyalarında ilk dəfə erkən orta əsr yazılı qaynaqlarından geniş istifadə edərək, ölkə və dünya tarixçilərinin tədqiqatlarına tənqidi yanaşmaqla Albaniyanın sərhədləri, ərazisi, əhalisi, etnik tərkibi, etnik prosesləri, ticarəti, şəhərləri, müdafiə tikintiləri, dövlət quruluşu, mədəniyyəti, dini, dili, yazısı və ölkənin yadelli işğalçılara qarşı mübarizəsini tədqiq edib, monoqrafiya şəklində çap etdirərək oxucuların sərəncamına verib.

Tofiq müəllimin elmi işçilər, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş əsərləri vətənini, xalqını, dövlətini sevən hər bir şəxsin masaüstü kitabına çevrilib. Yüz illər keçəcək, Tofiq Məmmədovun öz həqiqət üzü ilə tanınan yaradıcılığı təravətini saxlayacaq.

Tofiq müəllim abırı üzündə getdi bu dünyadan - heç kimə yaltaqlıq etmədi, heç kimə böhtan atmadı, yalan, hədyan danışmadı. Haqsızlığa dözməyən, düz danışan adam kimi qaldı yaddaşlarda. O, başqalarına hörmətlə yanaşdığı kimi, özünə də hörmətlə yanaşmağı, diqqətli olmağı tələb edərdi. Laqeyd, yaddaşı "dar" adamları sevməzdi, səhvləri üzünə deyərdi. İnsanlığa, böyükkiçiyə hörmətlə yanaşmayan adamlardan xoşu gəlməzdi. Vəzifəli olan, lakin böyüklük etməyən, karyerist rəhbərliyə rəğbət bəsləməzdi. Bir dəfə nahaqdan arxasında saxlandığı qapının ağzına ikinci dəfə getməzdi.

Xatirələrdə xarakteri bütöv, ləyaqəti yüksək, mərd-mərdanə, kişi kimi qalacaq Tofiq müəllim.

Tofiq müəllimin xatirəsi onu yaxşı tanıyanların qəlbində daim yaşayacaq.

84 yaşınadək əsl alim kimi yaşayıb-yaratmış, əsl insan, əsl kişi kimi ad qazanmış Tofiq müəllimə Allah rəhmət eləsin, ruhu şad olsun!

***Qasım HACIYEV***

# Kulinar Tahir Əmiraslanovdan beynəlxalq qurumlara şikayət yazan və yazdıranlar...

**Azərbaycan Milli Kulinariya Mərkəzinin rəhbəri Tahir Əmiraslanovla bağlı aidiyyəti beynəlxalq təşkilatlara şikayətlər daxil olması barədə xəbərlər yayılıb. Uzun illərdir Azərbaycan milli kulinariyasının yaşadılmasında, mətbəx mədəniyyətimizin qorunmasında və təbliğatında əhəmiyyətli rol oynayan T.Əmiraslanov haqqında kimlər Dünya Kulinariya Təşkilatında mənfi rəy yaratmaq məqsədi güdür?**



*"Təəssüf edirəm ki, bəzi azərbaycanlılar da ermənilərə qoşulublar"*

*"O insanlar ermənilərlə əlbir olub barəmdə Beynəlxalq Kulinariya Təşkilatına həqiqətə uyğun olmayan sözlər yazıblar"*

Azərbaycanın Milli Kulinariya Mərkəzinin rəhbəri, ölkəmizin baş kulinarı, Dünya Kulinariya Assosiasiyasının nüfuzlu üzvü Tahir Əmiraslanov "Bakı-Xəbər"ə bildirdi ki, bu əməli ona qarşı "sapı özümüzdən olan balta"lar törədib.

T.Əmiraslanovun sözlərinə görə, o, bu məsələnin hüquq müstəvisində həll edilməsini istəyir. Bununla əlaqədar artıq məhkəməyə də müraciət etdiyini dedi.

"Xəyanətin detalları haqqında qısa məlumat verə bilməyəcəyəm. Amma bununla bağlı faktlarımız, sənədlər, səs materialları var. Həmin faktlar məhkəməyə də təqdim edilib. Mediadan xahiş edirəm, tək mənim sözlərimi deyil, faktları da dərc etməyə maraqlı olsunlar. Mən bu faktları jurnalistlərlə bölüşə bilərəm".

T.Əmiraslanov, həmçinin, vurğuladı ki, Dünya Kulinariya Təşkilatına şikayət məktubu imzalayanlar sırasında azərbaycanlıların da olması onu təəssüfləndirir. Bunun bir erməni oyunu olduğunu və bizimkilərin də, ya bilərəkdən, ya da bilməyərəkdən, bu oyuna qoşulmasının böyük təxribat xarakteri daşıdığını vurğulayan T.Əmiraslanov bildirdi ki, bütün bunlar ona qarşı bir xəyanətdir. "Bu bir erməni planıdır. Məqsəd də məni oradan uzaqlaşdırmaqdır. O insanlar ermənilərlə əlbir olub barəmdə Beynəlxalq Kulinariya Təşkilatına həqiqətə uyğun olmayan sözlər yazıblar. Həmin məktubda yazırlar ki, guya mən rüşvətxoram, qohumbaz və yerlibazam, gənclərə işləmək üçün şərait yaratmıram. Bunların hamısı ağ yalandır. Bu böhtan və şər kampaniyasını aparmaqla məni beynəlxalq təşkilatda nüfuzdan salmaq, neytrallaşdırmaq məqsədi güdürlər. Hazırda Ermənistan həmin quruma üzv olmaq istəyir, onlar o quruma üzv olan kimi bütün qədim Azərbaycan xörəklərinin ermənilərin milli xörəkləri olduğunu iddia edəcəklər, hətta bunun təsdiqlənməsinə də nail olacaqlar. Nə qədər ki, mən o qurumda təmsil olunuram, ermənilər heç bir şey edə bilmirlər. Çünki lavaşın ermənilərə aid olmadığını, eyni zamanda da dolmanın milli Azərbaycan xörəyi olduğunu sübut etdik, UNESCO-ya saldırdıq. Bundan sonra ermənilər mənə qarşı daha böyük təxribatlara əl atdılar. Ermənilər özlərinə güclü sponsor tapıb Azərbaycan mətbəxi əleyhinə həmin qurumda işlər görəcəklər. 2004-cü ildə Beynəlxalq Kulinariya Təşkilatına biz sədrlik etməli idik. Təəssüf edirəm ki, bəzi azərbaycanlılar da ermənilərə qoşulublar. Konkret olaraq Milli Mətbəxin və Qastronomik Turizmin Təbliğatı Təşkilatının sədri Fərhad Aşurbəyli və onun müavini Orxan Muxtarov mənim əleyhimə yazılan şikayət məktubuna imza atıblar. Hazırda iş Yasamal Rayon Məhkəməsindədir. Bu məktubla bağlı təkzib verilməlidir" - deyə T.Əmiraslanov vurğuladı.

*"Bu böhtan və şər kampaniyasını aparmaqla məni beynəlxalq təşkilatda nüfuzdan salmaq, neytrallaşdırmaq məqsədi güdürlər"*

Yazıda adı keçənlərin də mövqeyini dərc edə bilərik.

***İradə SARIYEVA***

# Milli zəfəran istehsalı üçün kadr potensialı dağılıb - yeni problem...

**Abşeron yarımadasının altı "qara qızıl" olduğu kimi, üstü də qızıla bərabərdir. Bu torpaqlarda respublikanın bir çox yerində yetişməyən qiymətli məhsullar becərilir. Vaxtilə şəninə mahnılar qoşub, süfrələrimizin bəzəyi adlandırdığımız zəfəran da həmin bitkilərin sırasına daxildir. Dünyada ən qiymətli kənd təsərrüfatı məhsullarından biri olan zəfəran bir çox ölkədə, xüsusən İranda, İspaniyada, Portuqaliyada yetişdirilir.**



*"Zəfəranın yenidən əkinə qaytarılması asan məsələ deyil, birinci növbədə zəfəranın toxumçuluğunu qurmaq lazımdır"*

***Nicat Nəsirli:** "Zəfəran yetişdirən insanlarımız çox azdır, əmək resurslarımız dağılıb"*

Onun dünya üzrə ən böyük istehsalı İspaniyaya məxsusdur. Lakin XX əsrin ortalarında Abşeron yarımadasında da 16 tondan çox quru zəfəran istehsal olunub.

Tarixdən məlumdur ki, vaxtilə kiçik bir torba zəfəranın qiymətinə Həcc ziyarətinə gedib-gələnlər olub. Bu baxımdan belə qiymətli bitkinin yetişdirilməsi ixrac potensialının artırılmasında, ölkəyə əlavə valyuta gətirilməsində də mühüm rol oynaya bilər. Həm qida, həm də əczaçılıq sənayesində mühüm xammal hesab olunan zəfəranın dünya bazarında qramı növ və keyfiyyətindən asılı olaraq 5-35 avro arasında dəyişir. Lakin hazırda bu səmərəli sahə bir qədər kölgədə qalıb.

Qeyd etmək yerinə düşər ki, Abşeron zəfəranının keyfiyyətinə görə tayı-bərabəri yoxdur. Düzdür, hazırda ölkəmizə İrandan gətirilmiş zəfəran da satılır. Ancaq onu Abşeron zəfəranı ilə müqayisə edənlər yaxşı bilirlər ki, onların arasında çox böyük fərq var.

Zəfəran dünyanın ən bahalı ədviyyatıdır. Zəfəranın dünya bazarını özünə cəlb edən hissəsi məhz çiçəyin içindəki 3 qırmızı telidir ki, bir kiloqramı 1100 dollardan 11 min dollara qədər qiymətə satılır. Ancaq bu məhsulun ölkədə istehsalı əvvəlki illərlə müqayisədə zəifdir. Bunun səbəbi isə zəfəran yetişdirilməsi ilə məşğul olan kadrların sayının az olması və bu sektora marağın zəif olmasıdır.

**Aqrar sahə üzrə ekspert Nicat Nəsirli qeyd etdi ki, Sovet İttifaqı dağılarkən ictimai proseslərin təsirilə istehsalı azalan bitkilərin yenidən əkin strukturuna qaytarılması ilə bağlı müzakirələr aparılır:** "Həmin bitkilərin böyük əksəriyyətinə həm daxili, həm də dünya bazarında böyük ehtiyac var. Onların çoxu yem bitkiləridir və yemçilik üçün vacibdir. Amma nəzərə almaq lazımdır ki, həmin bitkiləri əkinə qaytarmaq üçün ciddi araşdırmalar tələb olunur. Bu istiqamətdə rəsmi qurumlarda müzakirələr gedir. Zəfəranın yenidən əkinə qaytarılması asan məsələ deyil. Birinci növbədə zəfəranın toxumçuluğunu qurmaq lazımdır. Toxum çox baha başa gəlir. 1-2 sotda zəfəran əkmək 11-12 min manat xərc tələb edir. Bitkinin toxumçuluq olmadan yetişdirilməsi maya dəyərinə böyük təsir göstərər. Nəticədə yerli zəfəran İrandan gətirilən zəfərana rəqabətdə uduzacaq. Ona görə də hökmən məsələnin iqtisadi əsaslandırılması olmalıdır. Bu gün zəfəranla bağlı reallıq ondan ibarətdir ki, bazarımız İran və bəzi Şərq ölkələri tərəfindən tutulub. O ölkələrdən Azərbaycana istənilən keyfiyyət və qiymətdə zəfəran gətirilir".

Həmsöhbətimiz onu da vurğuladı ki, zəfəranın becərilməsi üçün əmək resursları yoxdur: "Nəzərə almalıyıq ki, bir vaxtlar zəfəranla bağlı əmək bazamız vardı. Zəfəran yetişdirən insanlarımız çox azdır, əmək resurslarımız dağılıb. Yenidən o cür insanları tapmaq və zəfəranı əmək məşğuliyyətinə çevirmək asan məsələ olmayacaq. Ümumiyyətlə, zəfəran sahələrinin genişləndirilməsilə bağlı birmənalı fikir yoxdur. Dövlət tərəfindən yürüdülən fikir budur ki, zəfəranın strateji bitki kimi yetişdirilməsi vacibdir. Dünya bazarında zəfəranın ümumi dövriyyəsi ildə təxminən 150-200 milyon dollardır. Azərbaycan da buna laqeyd qala bilməz. Çünki ölkəmiz özü böyük bir bazardır. Amma hökmən əmək resursları, toxumçuluq və s. kimi məsələlər nəzərə alınaraq addımlar atılmalıdır. Bu məsələlərin hamısı elmi şəkildə iqtisadi əsaslandırılmalarla icra olunmalıdır. Amma bunu kim etməlidir? Dövlət gedib zəfəran əkəsi deyil. Burada maraqlı olan sahibkarlar, istehsalçılar təşəbbüs irəli sürməlidirlər. Zəfəran yetişdirilməsi 1-2 ilə nəticə verməDiyinə görə dövlət ucuz və uzunmüddətli kreditlər, texnoloji dəstək verməlidir ki, sahibkarlar bu işdə maraqlı olsunlar".

Ekspertin sözlərinə görə, hazırda zəfəran Zirədə 10 hekatarda, Zərdabda 1 hektarda, eyni zamanda, Bakı kəndlərində 1-2 sotda yetişdirilir: "Amma bu çox zəifdir. İstehsal edilən məhsul daxili tələbatı ödəmək gücündə deyil. Bizdə zəfəran eksperiment kimi yetişdirilir. Kütləvi əkin üçün torpaq da lazımdır. Bəzi kənd təsərrüfatı bitkiləri - üzüm, zəfəran, texniki bitkilər əkilən kimi nəticə vermir. Görürsünüz, pambıqçılıq inkişaf edir. Amma necə? Dövlətin hərtərəfli dəstəyi hesabına. Bu dəstək olmasa, pambıq əkilib ortaya çıxarıla bilməz. Zəfəranda da bu şəkildə birbaşa və dolayı dövlət dəstəyinin verilməsi vacibdir".

***Günel CƏLİLOVA***

# Qəbul imtahanlarında yenilik - fənlər üzrə bal məhdudiyyətinin qaldırılması abituriyentə nə verəcək...

**Dövlət İmtahan Mərkəzi (DİM) bu il ali məktəblərə yeni qayda ilə keçirilən qəbul imtahanlarında, ötən illərdə olduğu kimi, fənlər üzrə nisbi balın qoyulub-qoyulmamasına və abituriyentlərin hər hansı imtahan fənni üzrə nisbi bal toplaya bilmədikdə ali məktəbə qəbul müsabiqəsinə buraxılmayacağı ilə bağlı valideynləri narahat edən məsələlərə aydınlıq gətirib.**



*"2019-cu ildən etibarən minimum bal məhdudiyyətinin aradan qaldırılması..."*

DİM-in mətbuat katibi Xanlar Xanlarzadə media nümayəndələrinə açıqlamasında qeyd edib ki, ötən illərin qəbul qaydalarına görə, ixtisas seçimində hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərdilər: "Bu il isə abituriyentlər üçün imtahan fənləri üzrə nisbi bal məhdudiyyəti, yəni hər hansı fənn üzrə minimal olaraq müəyyən edilmiş balın toplanması şərti qoyulmayıb. Amma builki qəbul qaydalarının ümumi şərtlərinə əsasən, abituriyentin imtahanın birinci (birinci, yəni buraxılış imtahanı mərhələsində maksimal 300 bal) və ikinci mərhələsində (maksimal 400 bal) topladığı minimal balın ümumi həddi 200 olmalıdır. Abituriyent üçün imtahanın birinci mərhələsində minimal balla bağlı tələb qoyulmasa da, onun ikinci mərhələdə topladığı bal 100-dən az olmamalıdır.

## *Kamran Əsədov: "Bu yeniliyin tətbiqi ali təhsil alacaq şəxslərin sayının artmasına gətirib çıxaracaq"*

Bununla yanaşı, əgər abituriyent buraxılış imtahanında 80 bal toplayıbsa, ikinci mərhələ imtahanında minimal olaraq 120 bal toplamalıdır ki, müsabiqədə iştirak edə bilsin. Çünki müsabiqəyə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılırlar. Əvvəllər nisbi bala qoyulmuş tələblər, eyni zamanda, nisbi bal sıfır olduqda müsabiqədə iştirak edə bilməməklə bağlı qoyulan məhdudiyyətlər indi yoxdur".

**Qəbul imtahanlarında fənlər üzrə bal məhdudiyyətinin ləğv olunmasının əhəmiyyəti barəsində danışan təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, uzun müddətdir Azərbaycanda ali təhsil müəssisələrinə qəbul olunmaq istəyənlər üçün I, II, III və IV ixtisas qrupları üzrə müsabiqədə ümumi balı 200-dən və bir fənn üzrə minimal balı 10-dan az olmayan abituriyentlər iştirak hüququna malik idilər:** "Eyni zamanda, ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılması üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmurdu. Amma bu qərar minlərlə abituriyentin ali məktəbə qəbul olunmaq imkanını məhdudlaşdırırdı. Xatırladım ki, 2013-cü ildə Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını təsdiq etdi. Həmin Strategiyada göstərilirdi ki, təhsil əlçatan olmalıdır. Yəni təhsilin əlçatanlığı təmin edilməlidir. Bu gün Azərbaycanda ali təhsil alanların sayı ümumi ölkə vətəndaşlarının cəmi 17 faizini təşkil edir. Hər 1000 nəfərdən 126-sı ali təhsillidir ki, bu da çox aşağı səviyyədir. Düzdür, Azərbaycan əhalisi oxuyub-yazma bacarıqlarına görə dünyada birinci yerdədir. Yəni ölkə vətəndaşlarının 100 faizi oxuma-yazma bacarığına malikdir. Amma bizdə qəbul imtahanları çox çətin idi. Hesab edirəm ki, imtahan tapşırıqları çox asanlaşmalıdır. Əhalini oxutmağa çalışmalıyıq. Amma ələ qılınc və qalxan götürüb, uşaqların qarşısını kəsmişik ki, ali məktəbə girməsinlər. İnkişaf etmiş ölkələrdə orta məktəbi bitirən 100 şagirdin hamısı ali təhsilli olmaq istəyir. Universitetdə yer olmadığına görə qəbul imtahanı verirlər. Bizim kimi ölkələrdə heç qəbula ehtiyac yoxdur. Çünki bizim orta məktəbi bitirən hər 100 uşağın 16-17-si ali məktəbə qəbul olunur. Halbuki, 100 nəfərdən 50-si ali məktəbə qəbul olunmalıdır. Belə olan təqdirdə heç qəbul imtahanına ehtiyac yoxdur. Olsa da, həddindən artıq nominal bir şey olmalıdır. Bunu mən 20 ildir deyirəm. Amma qəbulda nə varsa, bütün Azərbaycanı aşağı səviyyəyə salıb. Cənubi Koreyada orta məktəbi bitirən hər 100 uşağın 95-i ali məktəbə qəbul olunur. 2019-cu ildən etibarən minimum bal məhdudiyyətinin aradan qaldırılması təhsilin əlçatanlığına ciddi şəkildə müsbət təsir göstərəcək. Ali təhsil alma hüququna malik insanların sayını ciddi şəkildə artıracaq. Çünki 2018-ci ilə qədər bu və ya digər fəndən minimum balı toplaya bilməyənlər, hətta keçid balı toplasalar belə, ixtisas seçmə hüququna malik olmurdular. Amma indi 200 bal toplayanlar, hətta 2 və 3 fəndən 0 bal toplasalar belə, ümumi balları 200-dən çox olsa, onlar ali məktəbə qəbul olunacaqlar. Bu yeniliyin tətbiqi ali təhsil alacaq şəxslərin sayının artmasına gətirib çıxaracaq".

***Günel CƏLİLOVA***

# Cinsi xəstəliklərdən ölənlərin sayı artıb, niyə...

**Açıqlanan statistik rəqəmlərə əsasən, son illər Azərbaycanda da cinsi yolla keçən xəstəliklərin sayı artmaqdadır. Ekspertlərin hesablamalarına görə, Yer kürəsinin hər 6 sakinindən biri nə zamansa cinsi yolla ötürülən hər hansı bir xəstəliyə yoluxub. Azərbaycanda da cinsi yolla keçən xəstəliklərin sayı ildən-ilə artır.**



*"Cinsi yolla ötürülən xəstəliklərdən qorunmağın ən vacib yollarından biri..."*

Buna bir neçə faktor səbəb olur: cinsi partnyorların tez-tez dəyişdirilməsi, prezervativ istifadə etmədən cinsi əlaqə, fahişəlik və sair.

Dövlət Statistika Komitəsi son 11 ildə Azərbaycanda sidik-cinsiyyət sistemi xəstəliklərindən ölənlərin sayını açıqlayıb. Məlumatda qeyd olunur ki, 2007-ci ildən 2018-ci ilin sonuna qədər ölkədə 13655 nəfər sidik-cinsiyyət sistemi xəstəliklərindən dünyasını dəyişib.

Son üç ildə bu xəstəliklərdən ölənlərin sayı əvvəlki illərlə müqayisədə xeyli artıb. Belə ki, 2016-cı ildə 1266 nəfər, 2017-ci ildə 1271 nəfər, 2018-ci ildə 1244 nəfər cinsiyyət orqanlarında yaranan xəstəliklərə görə vəfat edib. Bu da əvvəlki illərlə müqayisədə 200-250 nəfərə (hər il) qədər çoxdur.

Ekspertlər bildirirlər ki, cinsi yolla keçən xəstəliklərdən ölənlərin sayının artması həmin şəxslərin düzgün həyat keçirməməsi ilə bağlıdır.

## *Ramiz Abdullayev: "Bəzi cinsi yolla yoluxan xəstəliklər vaxtında müalicə olunmasa, uzunmüddətli xəstəliyə və hətta ölümə səbəb ola bilər"*

**Androloq Ramiz Abdullayev bizimlə söhbətində qeyd etdi ki, bəzi cinsi yolla yoluxan xəstəliklər vaxtında müalicə olunmasa, uzunmüddətli xəstəliyə və hətta ölümə səbəb ola bilər:** "Dünyada ən təhlükəli cinsi yolla yoluxan xəstəlik HİV-dir. HİV (İnsan immun çatışmazlığı virusu) QİÇS-ə (Qazanılmış immun çatışmazlığı sindromu) səbəb olur ki, bu da insan bədəninin immun sistemini zədələyir və xəstəliklərə qarşı mübarizə gücünü zəiflədir. Cinsi yolla ən çox yayılan xəstəliklərdən biri honoreyadır. Bir sıra hallarda xəstə anadan doğuş zamanı dölə, xəstə insanın çirklənmiş hamam-tualet dəsti, paltarları, tibbi alətlər vasitəsilə də sağlam insanlara yoluxan bu xəstəlik çox müxtəlif adlarla (süzənək, yaxud triplit) tanınır. Honoreyanın əsas klinik əlaməti sidik kanalından irinli sarı-yaşılımtıl axıntının olmasıdır. Honoreyanın əlaməti cinsi əlaqədən 1-15 gün ərzində, daha çox hallarda isə 1-2 gün sonra, hətta bəzən 12 saat sonra yaranır. Bu əlamətlər sidik kanalından irinli axıntının gəlməsi, qaşınma, yandırma, cinsi orqan başının ağrılı olması, sidik kanalının xarici dəliyinin qızarması, şişkinləşməsi, iltihablaşması, hərdən isə sidik ifrazının axırında cüzi qan qarışığı, temperaturun yüksəlməsi ilə da özünü göstərir.

Geniş sürətlə yayılması və kifayət qədər ciddi fəsadlara yol açması ilə kişi və qadın sonsuzluğunun səbəbləri arasında çox böyük çəkiyə malikdir. Honoreyanın törədicisi neysseriya honoreya adlanan bakteriyadır. Risq qrupuna reproduktiv yaşda olan, tez-tez cinsi partnyorunu dəyişən, daha çox tüfeyli, əxlaqsız həyat tərzi keçirən, aktiv cinsi həyat yaşayan savadsız insanlar-fahişələr, narkomanlar, cinsi gigiyenaya əməl etməyən insanlar daxildir. İnfeksiya mənbəyi əksər hallarda özündə xəstəliyin əlamətlərini hiss etməyən və honoreya xəstəsi olduğunu bilmədən sağlam insanlarla cinsi əlaqədə olanlardır. Honoreyalı xəstələrin 80%-ə qədəri 20-30 yaşlı, aktiv cinsi həyat yaşayan, cinsi partnyorlarını tez-tez dəyişən insanlardır. Araşdırmalar zamanı məlum olub ki, bir dəfə cinsi əlaqədə olmaqla honoreyalı qadından kişinin yoluxma risqi 20-25 %, əksinə, honoreyalı kişidən qadının yoluxma risqi təqribən 80%-dir. Bundan əlavə, bir çox cinsi yolla keçən xəstəlik də var".

Həmsöhbətimiz onu da əlavə etdi ki, cinsi yolla ötürülən xəstəliklərdən qorunmağın ən vacib yollarından biri tez-tez partnyor dəyişikliyi etməməkdir: "Prezervativdən istifadə etmək, daha doğrusu, düzgün istifadə etmək də vacibdir. Araşdıranda da məlum olur ki, xəstə prezervativdən düzgün istifadə etmir. Onu da deyim ki, prezervativ cinsi yolla keçən infeksiyalardan 100 deyil, 80 faiz qoruyur".

R.Abdullayevin sözlərinə görə, xəstəliyin yayılmasının qarşısını almaq üçün maarifləndirmə işi aparılmalıdır: "Hesab edirəm ki, bu gün xəstəliyə yoluxanların sayının artması miqrasiya ilə bağlıdır. Miqrasiya prosesləri bu kimi təhlükəli xəstəliyə yoluxma halları risqini daha da artırır. Xüsusilə qeyd etmək lazımdır ki, ölkəyə gələn miqrantların kütləvi dispanserizasiyası aparılmadığından, bu xəstələr təsadüfən aşkar olunur. Xəstəlik aşkarlandıqda bu haqda mərkəzə məlumat verilir. Rəsmi qeydiyyat bu səviyyədədir. Kütləvi dispanserizasiya keçirilsə, ciddi bir nəticə ortada olar və bunun yayılmasının qarşısı alınar. Xəstəliyin yayılmasının qarşısını almaq üçün ciddi şəkildə maarifləndirmə tədbirləri həyata keçirilməlidir. Əksər insanın xəstəlik və onun fəsadları haqqında məlumatı yoxdur. Bu işdə KİV-lə birgə əsaslı şəkildə müxtəlif tədbirlər görülməlidir".

***Günel CƏLİLOVA***

№ 92 (3990) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 MAY 2019-cu il



## "Azercell"in dəstəyilə Quba məktəbliləri üçün kibertəhlükəsizlik mövzusunda təlimlər təşkil olunub

**Kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə mövzusunun mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alan "Azercell Telekom" MMC bu istiqamətdə təlimlərin keçirilməsini davam etdirir.**

Ölkəmizin müxtəlif bölgələrində "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" təlimlərini təşkil edən şirkət bu dəfə Quba şəhəri, H.Əliyev adına 1 nömrəli tam orta təhsil məktəbində 6-9-cu sinif şagirdlərini, eləcə də onların müəllim və valideynlərini bir araya gətirib. 13-17 may tarixlərini əhatə edən təlimlərdə iştirakçılara internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məlumatlar, məktəbdənkənar təhdidlərin tanınması, onlarla mübarizə yolları haqqında məsləhətlər verilib.

"Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən keçirilən və 137 nəfərin iştirakı ilə baş tutan təlimlərdə sosial şəbəkələrdən səmərəli istifadə ilə bağlı tövsiyələri, uşaqlar üçün yaradılmış resursların siyahılarını, uşaqlara, eləcə də böyüklərə internetdən təhlükəsiz istifadənin əsaslarını təlqin edən materiallar təqdim olunub. Bundan əlavə, təlimlərdə internetdəki təhlükəli oyunlar, ekstremizm çağırışları, insanların şəxsi və maliyyə məlumatlarının oğurlanması kimi hallarla mübarizə yollarından bəhs edilib, internet təhlükəsizliyi, təhlükəsiz ev mühiti, şagirdlərin üzləşə biləcəyi çətinliklər haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, virtual dünyada uşaqların təhlükəsizliyinin təmin edilməsi mövzusuna həssaslıqla yanaşan "Azercell" "Universal Müdafiə", "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərinin də yer aldığı "Azercell Plus Təhlükəsizlik" proqramını istifadəyə verib. Bu proqram uşağın sosial şəbəkələrdə paylaşımlarını, dostlar siyahısındakı dəyişiklikləri izləməyə, onun qoşulduğu qruplardan xəbərdar olmağa, həmçinin, yerini müəyyənləşdirməyə və onun üçün təhlükəsiz ərazi yaratmağa imkan verir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

### Elan

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Məmmədov Əläddin Şirəli oğlunun və ailə üzvlərinin adına verilmiş JN:0033 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

İlyaszadə Səmral Elsevər oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE №18077436, ASAN 3).

Kazımlı Gülanə Əlirza qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" qadınların məşğulluğunun artırılmasına dəstək göstərir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti informasiya texnologiyaları vasitəsilə qadınların liderlik bacarığının artırılması istiqamətində layihəyə dəstək göstərir.**

"Sabirabadda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyi ilə birgə BMT-nin İnkişaf Proqramı çərçivəsində yaradılmış Salyan və Sabirabad Qadın Resurs Mərkəzlərində (QRM) həyata keçirilən layihənin məqsədi adıçəkilən rayonlarda qadınları İKT alətləri ilə tanış etmək, bu sahədə onların bilik və bacarıqlarını artırmaq və yeni texnologiyalar vasitəsilə qadınların liderlik bacarıqlarının inkişafına dəstək göstərməkdir. Layihə çərçivəsində hər iki QRM-in fəaliyyəti, qadınların uğur hekayələri və fərdi inkişafla bağlı məlumatları əks etdirən xüsusi internet portalı (www.azqrm.net) yaradılıb. Həmin portalda bacarıqların artırılması ilə bağlı vebinarlar yerləşdirilib. Bu portal vasitəsilə hər iki rayonun QRM üzvləri Mərkəzə gəlmədən məşğulluq və bizneslə məşğul olmaqla bağlı onlayn müraciət apara biləcəklər.

Sabirabad və Salyan rayonlarında azqrm.net portalının təqdimatı, "Şəbəkələşmə" və "Məşğulluq, peşə və əlavə gəlir" mövzularında seminar keçirilib. Hər iki tədbirdə rayon mərkəzlərindən və kəndlərdən 25-ə yaxın qadın iştirak edib. "Bakcell" şirkəti özünün Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verir.

## "Nar" 120-dən artıq yeni baza stansiyasını istifadəyə verib

**Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksək keyfiyyətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Son 5 ayda mobil operator 20-dən artıq 3G, 95 4G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Bununla da "Nar" 4G baza stansiyalarının sayı 1800-ü, 3G baza stansiyalarının sayı isə 2670-i ötüb.**

Qeyd edək ki, mobil operator ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq, 45-dən artıq 4G baza stansiyasında avadanlıqlar yenilənib. Bundan başqa, mobil operator baza stansiyalarının şəbəkə tutumunu da genişləndirib.

Bölgələrə xüsusi diqqətilə seçilən "Nar" 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, regionlarda, şəhər və rayon mərkəzlərində də təqdim edir. Hazırda 47-dən çox bölgə mərkəzi 4G şəbəkəsi ilə təmin edilib. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür.

Qeyd edək ki, "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, "Nar"ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.





**Qoç** - Tefeya və Kallistonun münasibətləri çalışdığınız işdə yeniliklər vəd edir. Müəyyən qrupun daxilindəki münasibətlər də yenilənə bilər. Dostlar dəyişikliklərin mənbəyi olacaq. İşdəki təmas və əlaqələrdə fərqli istiqamətlər yarana bilər.



**Buğa** - Titan və Avropanın münasibətləri bu günün asan olmayacağından xəbər verir. Baş verməsini istəmədiyiniz hadisələr yaşanacaq. Həyatınızda önəmli olan insanlardan biri ilə münasibətlər gərginləşə bilər.



**Əkizlər** - Ay və Marsın münasibətləri sizdən baş verənləri qavramaq, təhlil etmək, nəticə çıxarmaq və yeni işlərə hazırlaşmağı tələb edir. Yaxın ətrafınızdakı insanlarla əlaqələri gücləndirin.



**Xərçəng** - Kallisto və Lisiteyanın münasibətləri sizdən ötkəm, amma həm də fəndgir və ağıllı davranmağı istəyir. Ətrafdakı insanların təhriklərinə və təxribatlarına aqressiv reaksiya verməyin.



**Şir** - Ay və Saturnun münasibətləri hələlik başa vurmadığınız işləri yeni mərhələyə keçirir. Gələn xəbərlərə, yaranan ideyalara həssas olun. İş təklifləri bol ola bilər. İzafi ünsiyyətlə özünüzü yormayın.



**Qız** - Tefeya və Oberonun münasibətləri sizdən yaranan təmayüllərə diqqətlə baxmağı tələb edir. İşdəki qaydaya riayət etmək çox mühümdür. Yerdəyişmə, prioritet yenilənməsi mümkündür.



**Tərəzi** - Günəş və Titan bu gün sizə yeni rol hazırlayıblar. Ola bilər ki, həmin işi görmək istəmirsiniz, amma nə etməli, iş sizi gözləyir. Kiminsə təsiri və ya nüfuzu sizə planlarınızı reallaşdırmağa mane ola bilər.



**Əqrəb** - Mars və Saturnun münasibətləri münasibətlərdəki yarımçıq mövzunu tamamlaşdırmaq, deyilməmiş sözləri demək məcburiyyəti yaradır. Çoxdan bəri başlamağa cürət etmədiyiniz və ya vaxt tapmadığınız işi görmək zamanıdır.



**Oxatan** - Umbriel və Enseladın münasibətləri bu gün energetikanızı artıracaq. Müəyyən xəbər, görüş, mühüm danışıqla bağlı nigaranlıq var. Yaxın iki günlə əlaqədar fəaliyyətinizi müəyyənləşdirin.



**Oğlaq** - Venera və Plutin bu gün batinizindəki təbəddülatdan qurtulmağı, yaxın gələcəkdəki fəaliyyətinizi nisbətən də olsa, planlaşdırmağınızı istəyir. Nəyinsə yaşanacağını hiss etdiyiniz situasiyalarda sayıq və ehtiyatlı olun.



**Dolça** - Andromeda və Ay bu gün sizə ilin ən mühüm hadisələrindən birini vəd edir. Bu olay yaşamınız üçün əhəmiyyətlidir. Köhnələn və gərəksiz roldan qurtulmaq istəsəniz, hisslərinizdə yenilənmə baş verəcək.



**Balıqlar** - Deymos və Fobosun münasibətləri sizə yeni hadisələr məcrası vəd edir. Tələsməyin, bu gün əsas məsələ yaşananlara hazır olmaq, prioritetləri müəyyənləşdirmək, ötənlərdə özünü doğrultmayan planlar və istəkləri unutmaqdır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Türkiyədə yeraltı şəhər tapıldı

**Türkiyənin ən vacib mədəniyyət və turizm mərkəzlərindən biri olan Kapadokyada köhnə bir evin altında qədim yeraltı şəhərin girişi tapılıb.**

"AZƏRTAC" bildirir ki, Türkiyənin Nevşehir şəhərinin Derinkuyu rayonunda tapılan yeraltı şəhərin uzun bir dəhlizdən sonra sağa və sola ayrıldığı və bir neçə girişinin olduğu bildirilir. Hələ ki, tarixin hansı dövrünə aid olduğu bilinməyən tapıntının öyrənilməsi istiqamətində işlər aparılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.